**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**KAMAL HƏSƏN oğlu CAMALOV**

# AZƏRBAYCAN MƏKTƏB VƏ PEDAQOJİ FİKRİNİN İNKİŞAFI TARİXİNDƏ «MOLLA NƏSRƏDDİN» JURNALININ VƏ MOLLANƏSRƏDDİNÇİLƏR HƏRƏKATININ YERİ VƏ ƏHƏMİYYƏTİ

**5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi**

**Pedaqogika üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

## A V T O R E F E R A T I

**B A K I – 2 0 1 8**

Dissertasiya Naxçıvan Dövlət Universitetinin "Pedaqogika və psixologiya" kafedrasında yerinə yetirilmişdir

**Elmi məsləhətçilər:** **İSA ƏKBƏR oğlu HƏBİBBƏYLİ**
*filologiya üzrə elmlər doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi*

**ORUC QAFAR oğlu HƏSƏNLİ**
*pedaqogika üzrə elmlər doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar elm xadimi*

**Rəsmi opponentlər:** **FƏRRUX ABBAS oğlu RÜSTƏMOV**
*pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar elm xadimi*

**ŞAHİN TAĞI oğlu TAĞIYEV**
*pedaqogika üzrə elmlər doktoru, professor*

**İNTİQAM HİLAL oğlu CƏBRAYILOV**
*pedaqogika üzrə elmlər doktoru, professor*

**Aparıcı təşkilat:** **Bakı Dövlət Universitetinin Pedaqogika kafedrası**

Müdafiə «01» may 2018-ci il tarixdə saat $14^{00}$-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən BD.02.061 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az - 1000. Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68, ADPU, əsas bina, Kiçik akt zalı.

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana – İnformasiya Mərkəzində tanış olmaq olar.

Avtoreferat «______» ______________ 2018-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi:** **R.Z.HÜMBƏTƏLİYEV**
*riyaziyyat üzrə elmlər doktoru, dosent*

# TƏDQİQAT İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığının əsaslandırılması.** Mollanəsrəddinçilərin yaradıcılığı XX əsrin əvvəllərində yalnız xalqın həyat tarixçəsi deyil, həm də bu dövrə qədərki problemlərin məcmusuna ümumi bir baxışdır. "Molla Nəsrəddin" jurnalının və mollanəsrəddinçilərin yaradıcılığının incəlikləri həm də onu təsdiqləyir ki, onlar ötüb keçənlərə deyil, dünəndən bu günə baxır. Mollanəsrəddinçilər sanki dünəni bugünləşdirir, dünənə bu günün çalarlarını əlavə edərək sabaha aparır, əbədiləşdirir. Bu cəhətdən mövzu aktualdır və mövzunun aktuallığını hər şeydən öncə, ulu öndər Heydər Əliyevin özünü mollanəsrəddinçilərin "ağsaqqal yoldaşı"[1] sayan Cəlil Məmmədquluzadə haqqında söylədiyi fikirlər sübut edir. Cəlil Məmmədquluzadəni və onun yaratdığı mollanəsrəddinçilər ədəbi məktəbini görkəmli dövlət xadimi Heydər Əliyevə sevdirən başlıca cəhət böyük sənətkarın milli oyanış və milli özünüdərk ideyalarına ardıcıl xidmət etməsi olmuşdur. Heydər Əliyev göstərirdi ki, "Xalqımızın milli şüurunun formalaşmasında məhz "Molla Nəsrəddin" jurnalının və Cəlil Məmmədquluzadənin fəaliyyətinin rolu əvəzsizdir"[2][2].

Maarifçilik ağıla istinad edən bütöv sosial-ictimai ideyadır. Xalqın mənafeyini müdafiə edənlər maarifçilər adlanır. Əgər Rusiyanın görkəmli maarif xadimi, pedaqoq Nikolay İvanoviç Piroqov "Həyat məsələləri" adlı əsəri ilə mürgüdə olan pedaqoji fikri oyatdısa, Azərbaycanda da "Molla Nəsrəddin" jurnalı mürgüləməkdə olan pedaqoji fikri oyatdı və maarifçilik hərəkatını inkişaf etdirdi. Azərbaycan xalqının milli-ictimai oyanışına, özünütəşkili, özünüifadə və özünütəsdiqinə demək olar ki bir zəmin yaratdı. Azərbaycanda ictimai fikirdə əsaslı dəyişiklik baş verdi. Artıq mollanəsrəddinçilər inqilabi-siyasi mübarizənin hazırlanma yolunu ideoloji maarifçi problemlərinin həllində axtarmağa başladılar. Mollanəsrəddinçilər hərəkatının başlıca məqsədi mövhumatı, sxolastikanı tənqid etmək, maarifi, elmi, azadlığı təbliğ etmək idi. Belə ictimai-pedaqoji hərəkata cəmiyyətin qabaqcıl adamları – müəllimlər, maarifpərvər ziyalılar, şairlər, ədiblər, elm və incəsənət adamları qoşuldular. Maarifçi inqilabi fəallıq və narahatlığın bu ərəfəsində milli məktəb, milli tərbiyə problemlərini həll etməyə qabil ziyalılar dəstəsi

---

1 Məmmədquluzadə C. Əsərləri. Dörd cilddə. IV cild (Tərtib edəni və ön sözün müəllifi akademik İ.Həbibbəyli). Bakı: «Öndər», 2004, səh.244

2 Cəlil Məmmədquluzadə ensiklopediyası. Bakı: «Şərq-Qərb», 2008, səh.100-101

yetişdi. O cümlədən "Molla Nəsrəddin" ədəbi məktəbinin nümayəndələri də öz sələflərinin maarifçilik haqqındakı ideyalarını bir az da cilalandıraraq yeni fikir, yeni düşüncə və milli təfəkkür baxımından qiymətli fikirlər söylədilər. Bununla da mollanəsrəddinçilər milli mənafe uğrunda mübarizədə Azərbaycan məktəb və pedaqoji fikir tarixinin inkişafına dəyərli töhfələr verdilər.

XIX əsrin sonu, XX əsrin əvvəli son dərəcə mürəkkəb, ziddiyyətli bir dövrdür. Bu dövrü əhatə edən Mirzə Fətəli Axundov və "Əkinçi" maarifçi hərəkatı öz dövrünü obyektiv və subyektiv nəzər baxımından başa vurduqdan sonra Azərbaycan məktəb və pedaqoji fikir tarixində sanki bir boşluq hökm sürmüşdür. Əbdürrəhim bəy Haqverdiyev arada olan bu boşluğu nəzərə alaraq 1933-cü ildə qələmə aldığı "Ədəbi dilimiz haqqında" adlı məqaləsində yazırdı: "1905-ci il inqilabınadək Azərbaycanda ədəbiyyat yoxluğunu cürətlə etiraf etmək olar". Azərbaycanın görkəmli tədqiqatçı və tənqidçiləri də 1905-ci ilə qədər olan dövrü "təcəddüd" (Əziz Şərif), "sakitlik" (Kamran Məmmədov), "enişli-yoxuşlu" (Əziz Mirəhmədov), yaxud "Əkinçi" qəzetinin nəşrini dayandırması, Mirzə Fətəli Axundovun vəfatı" (İsa Həbibbəyli) və s. epitetlər ilə səciyyələndirmişlər.

Başqa qrup tədqiqatçılar isə maarifçiliyin 80-90-cı illər mərhələsini "milli intibahımızın sübh çağı" (F.Köçərli), "şəfəq sökülməsi" (Z.Hənəfi), "ziyalılar və maarifpərvərlərin çoxaldığı dövr" (M.İbrahimov) adlandırmışlar. Belə ki, maarifçi-demokratik baxışlar Moskva Universitetində ali təhsil almış Həsən bəy Zərdabi, Fransanın Sorbon Universitetini bitirmiş Məhəmmədağa Şahtaxtinski, Sank-Peterburq və Sorbon Universitetlərinin məzunu olmuş Əhməd bəy Ağayev, Qori şəhərindəki Zaqafqaziya Müəllimlər Seminariyasının məzunları Firidunbəy Köçərli, Rəşidbəy Əfəndiyev, Mahmudbəy Mahmudbəyov, Səfəralıbəy Vəlibəyov, Fərhad Ağazadə, Məmməd Qarayev, Tiflis Aleksandrovski Müəllimlər İnstitunun məzunları Sultan Məcid Qənizadə, Həbibbəy Mamudbəyov və digərləri tərəfindən müdafiə olunurdu. Onlar dünyəvi təhsilin müdafiəçiləri olmaqla yanaşı xalq maarifinin carçıları kimi yeni ideyalar irəli sürərək Azərbaycan pedaqoji fikrini zənginləşdirmişlər. Onlar xalqa öz mədəniyyətini inkişaf etdirmək sahəsində hərtərəfli yardım etməklə, onun maarifini, məktəb təhsilinin irəli aparılması uğrunda mübarizə aparmışlar. Əslində elə bu həm də akademik İsa Həbibbəylinin dediyi kimi, XIX əsrin 80-90-cı illəri Mirzə Fətəli Axundov maarifçiliyinin davamı, "Molla Nəsrəddin" dövrünün ərəfəsi idi (İ.Həbibbəyli. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Naxçıvan, "Əcəmi", 2009, 424 s.). (Bax: Rəşidə Məmmədova "Molla Nəsrəddin" jurnalında təhsil və tərbiyə məsələləri" namizədlik dissertasiyası. Naxçıvan Dövlət Universitetinin elektron kitabxanası,

2011, səh.3).

Maarifçilər fikir cərəyanı yaratmaqdan daha çox iş, əməl, fəaliyyət göstəricilərinə çevrilmiş, ictimai həyatın bütün sahələrini əhatə etmişlər. Hər şeydən əvvəl, Azərbaycanın mənəvi mədəniyyət tarixində əhəmiyyətini təyin etməyi, milli-azadlıq hərəkatından ilham almağı və o hərəkata xidmət etməyi, Azərbaycan torpağına, onun qəhrəmanlıq tarixinə, zəngin mənəvi sərvətinə, habelə dünya xalqlarının humanist mədəni irsinə, xəlqilik prinsiplərinə bağlı olmasını işdə və əməldə müdafiə etmişlər. Daha doğrusu, onlar milli maarifçiliyin tarixində “dildə, fikirdə, işdə birlik” (İ.Qaspralı) ideyasını meydana gətirmişlər. Adlarını qeyd etdiyimiz və ya edə bilmədiyimiz maarifçilərin əməli fəaliyyətində maarifçilik inkişaf edərək, genişlənərək məfkurə cərəyanından hərəkat səviyyəsinə yüksəlmişdir. Beləliklə, Azərbaycan pedaqoji-psixoloji-ictimai fikrində maarifçilik hərəkatı dövrü bərqərar olmuşdur.

Millətinin maariflənməsi yolunu mətbuatda görən və axtaran qeyri millətin qabaqcıl maarifçiləri Tiflisdə 26 adda qəzet və jurnallar nəşr etdirirdilər ki, bunun “on dördü rus (altısı rəsmi qəzet idi), altısı erməni, beşi gürcü, biri də fransız dilində buraxılırdı”[123]. Təbii ki, belə vəziyyətdə Azərbaycanın vətənsevər milli ruhlu ziyalılarının mətbuat orqanları yaratmaq uğrunda mübarizələri təbii idi. Hacı Səid Ünsizadənin “Ziya” və ya “Ziyayi-Qafqaziyyə” qəzeti (1879-1880), Tiflisdə Cəlal Ünsizadənin redaktorluğu ilə nəşr olunan “Kəşkül” jurnalı (1883-1891), Tiflisdə Məhəmməd ağa Şahtaxtlı tərəfindən nəşrə başlayan “Şərqi-Rus” qəzetləri (1903-1905) XX əsrin əvvəllərində yeni mətbuat nümunələrinin yaranmasına təkan verdi. Bu zaman Azərbaycanda mətbuatın yeni mərhələsi başlandı. “Hümmət”, “Həyat”, “Dəbistan”, “Dəvəti-Qoç”, “İrşad”, “Rəhbər”, “Təkamül” və s. qəzet və jurnallarla yanaşı, 1906-cı ildə Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadə tərəfindən “Molla Nəsrəddin” jurnalı Tiflisdə nəşrə başladı. İlk nömrəsi yayılan kimi, bir çox imzalarla, daha çox isə Mirzə Ələkbər Sabir – “Hophop”, Əbdürrəhim Bəy Haqverdiyev – “Xortdan”, Salman Mümtaz – “Xortdan bəy”, Məmməd Səid Ordubadi – “Hərdəmxəyal”, Əliqulu Qəmküsar – “Cüvəllağıbəy”, Əli Nəzmi – “Kefsiz”, Üzeyir Hacıbəyov – “Anaş qurbağa”, Əli Razi – “Dabanıçatdaq xala”, Mustafabəy Behbudov – “Süpürgəsaqqal”, Kərimbəy İsmayılov – “Dərdmənd”, Mirzə Məhəmməd Hatif (Axundov) – “Qeybi Gəncədən”, Məşədi Həbib Zeynalov – “Qızdırmalı”, Mirzə Cabbar Əsgərzadə – “Məh-

1 Hacıyev A.M. Tiflis ədəbi mühiti. Bakı: «Yazıçı», 1980, səh.15

kəmə pişiyi", Əli Məhzun Rəhimov – "Yetim Cücə", İsgəndər Qaffari – "Dılğır", Qurbanəli Şərifzadə – "Hacıleylək", Məhəmməd Hacinski – "Dəmdəməki", Məmmədəli Manafzadə Sabit – "Qozbel", Əlabbas Müznib – "Arıq" imzası ilə Cəlil Məmmədquluzadənin və Ömər Faiq Nemanzadənin ətrafına toplaşdılar, onların səsinə səs verdilər, məfkurə dostları və silahdaşları oldular. "Bir budaqda oturub min budağı yırğalayan"[1] mollanəsrəddinçilər demokratik pedaqoji ideyaların carçısı kimi çıxış edir, dövrün bütün pedaqoji problemlərinə cəsarətlə müdaxilə edir, tənqid edir, istehza edir, gülür və millətin savadsızlıq bataqlığından çıxması yollarını da yorulmadan arayıb-axtarırdılar. "Molla Nəsrəddin" gülüşü mənasız, yüngül gülüş olmayıb, ictimai əhəmiyyətə malik, tərbiyəvi, mənalı gülüş idi"[2].

Cəlil Məmmədquluzadə yazır ki, "Molla Nəsrəddin" hər ilin "iş planında", ümumilikdə 25 illik "iş planı"nda deyib ki, "din, məzhəb, şəriət, etiqad, iman, cənnət, cəhənnəm, müctəhid, molla, keşiş, xaxam, mürid və habelə bütün bu qisim sözlər gərək insanlar arasından götürülüb lüğətlərdən, kitablardan, yazılardan tamamilə silinib tullansınlar! Məscidlər, kəlisalar, sinaqoqlar, təkyələr, ibadətgahlar, pirlər, ziyarətgahlar, məhfillər, əza yerləri tamamilə sökülüb, dağılıb, maarif və mədəniyyət evlərinə döndərilməli..., o yerlərdə məktəb, qiraətxana, kitabxana və daha bu kimi maarif və mədəniyyət guşələri açılmalıdır"[3].

"Molla Nəsrəddin" jurnalının "həmişəlik yazıçıları" və "müxbirləri"nun "iş planı"nda daha çox qabartdığı pedaqoji problemlər aşağıdakılar idi: təlimin ana dilində aparılması, məktəblərdə hökm sürən sxolastikanın aradan qaldırılması, təhsilin ümumi, məcburi və pulsuz olması, rəğbətləndirməyə üstünlük verilməsi, yeni milli məktəblərin yaradılması, ana dilində dərsliklərin hazırlanması, təhsilin məzmununun milliləşdirilməsi və zənginləşdirilməsi, yeni təlim üsullarının tətbiqi, təlimin çətinliyini uşaqların əqli və fiziki imkanları ilə uyğunlaşdırılması, əlifbanın dəyişdirilməsi, qadın təhsili, dünyəvi təhsilin genişləndirilməsi, tərbiyənin məqsəd və məzmununun müəyyənləşdirilməsi və s. Bu ideyalar mollanəsrəddinçilərin fəaliyyətinin leytmotivini təşkil edirdi. Milli dilə və təlimin ana dilində aparılmasına münasibət məsələsi xalqın varlığına, azadlıq və müstəqilliyinə münasibət səviyyəsində hələ heç bir əsrdə belə kəskinliklə irəli sürülməmişdi. Maarifpərvər ziyalılar yeni məktəbləri maarifçiliyin milli şüur təliminin müqəddəs idealı hesab edirdilər.

1 Məmmədquluzadə H. Cəlil Məmmədquluzadə haqqında xatirələrim. Bakı: «Gənclik», 1981, səh.4

2 Mirəhmədov Ə.M. Sabir. Bakı: «Azərnəşr», 1958, səh.111

3 «Molla Nəsrəddin» jurnalı, 1929, №51

Mövzunun aktuallığı baxımından bir məsələni də qeyd etməyimiz yerinə düşərdi. Mollanəsrəddinçilərin maarifçilik görüşləri XVIII əsrin sonlarında əsası alman əsilli İohann Berkhart Bazedov (1724-1790) tərəfindən qoyulan flantropistlərin maarifçi görüşləri ilə eyniyyət təşkil edir desək yanılmarıq. Flantropizm yunan sözü olub "Philantröpos" – insanın dostu, insanpərvərlik deməkdir. "İnsanların dostları" adlanan flantropistlər (İohann Berkhart Bazedov, İohan Xristof Fridrix Quts, Ernest Xristian Trapp, İoaxim Henrix Kampen və b.) yetişməkdə olan nəsildən cəmiyyət üçün faydalı üzvlər, ictimai inkişafa kömək edə biləcək adamlar hazırlamaq, ictimai-iqtisadi inkişaf ilə ayaqlaşmayan təlim-tərbiyə sistemini kökündən dəyişdirməyi, məktəblərdə hökm sürən sxolastikanı, quru əzbərçiliyi, təhsilin məzmununun real həyatın tələblərindən ayrı düşməsini tənqid edir və buna qarşı olaraq – məktəbi təbiətlə və həyatla bağlamağa, təlimi uşaqlara sevdirməyə, uşaqlardan yararlı vətəndaş – vətənpərvər, fəal və insanların həyatını sevən nəsil hazırlamaq istəyirdilər. Flantropistlər müəllim kadrları hazırlığına xüsusi diqqət yetirirdilərsə, təlim-tərbiyə işində şagirdlərin fəallığına arxalanmağı, təlimin çətinliyini uşaqların əqli və fiziki imkanları ilə uyğunlaşdırmağı, rəğbətləndirməyə üstünlük verməyi, nadir hallarda cəza tətbiq etməyi məqsədəuyğun hesab edirdilərsə mollanəsrəddinçilərin də yaradıcılığında, baxış və görüşlərində həyata hazırlayan məktəb üçün faydalı olan bilik, bacarıq və vərdişlərin aşılanması yollarına üstünlük verilməsi yolları eyniyyət təşkil etməsə də ideya uyğunluğu öz əksini tapır.

Həmçinin, mollanəsrəddinçilər siyasi-ictimai məramdan tutmuş, ayrı-ayrı mənəvi əxlaqi sifətlərə qədər, bütün varlığı ilə xalqa, ata-babaların mütərəqqi, gözəl, nəcib adət-ənənələrinə, doğma ana dilinə bağlı olmasına qədər, geyiminə, görkəminə, əsasına, məzacına qədər, demək olar, bütün sifətlərindən söhbət açır. Onlar gah örtülü, gah açıq bir dillə Molla əminin fəhlə və kəndli dostu olduğunu, şahlara, sultanlara, çarlara və krallara nifrət etdiyini bildirirdi: "Molla Nəsrəddin kəndlilərin köhnə dostudur"; "...Molla Nəsrəddin köhnə sayaqla hürriyyət və ədalət bayrağı altında" çalışacaqdır; "Molla Nəsrəddinin məqsədi ...vəhşi adətlərin ortalıqdan götürülməyi yolunda çalışmaqdır"; "Molla Nəsrəddinin borcu yazıları və şəkilləri ilə müsəlman qardaşları "xəbərdar eləməkdir ki, düşmənlərini tanısınlar" və s.

Cəmiyyətdəki haqsızlıq, zülm, rəzalət, cəhalət, avamlıq, mütilik, üfunət iyi verən halların üstündən "pərdələri qovzamaq", "sirləri açmaq" mollanəsrəddinçilərin əsas xüsusiyyətlərindən biri olmuşdur. Mollanəsrəddinçilər xalqın milli adət və ənənələrindən, mənəvi-əxlaqi, psixoloji xü-

susiyyətləri haqqında geniş bəhs etmişlər. Aşkar olmuşdu ki, onların başlıca məziyyətlərindən biri doğrucul, həqiqətpərəst olmasıdır.

Azərbaycanda məslək-ideya, əqidə axtarışları, milli əxlaqi inkişaf problemləri pedaqogika nəzəriyyəsi və pedaqogika tarixi ilə bağlı olmuşdur. XX əsrin əvvəllərində bu bağlılıq milli tərəqqinin bütün sahələrinə təsir edərək maarifçilik arenasına çıxan "Molla Nəsrəddin" və "Füyuzat" ədəbi məktəbləri mədəni intibah tariximiz üçün paralel istiqamətli (realist və romantik) işıq seli – axını rolunu oynayaraq, milli mədəniyyət nümunəsi və bütövlükdə dünya standartlarına cavab verən bədii sənət yaddaşımıza çevrilmişdir. Bütöv bir milli mədəniyyətin iki müxtəlif tərəfini təmsil edən bu mətbuat orqanları yanlış olaraq bir-birinə qarşı qoyulmuş, yanlış olaraq barışmaz siyasi qüvvələr kimi qələmə verilmişdir. Halbuki professor Şamil Vəliyevin "Füyuzat ədəbi məktəbi" (Bakı: Elm, 1999, 444 s.) adlı əsərində vurğulandığı kimi, "Molla Nəsrəddin" (C.Məmmədquluzadə) və "Füyuzat" (Ə.Hüseynzadə) jurnalları bir-birinə məslək baxımından radikal müxalifətdə olmasalar da, bədii-estetik düşüncə qarşıdurmasında oldular və beləliklə də, müxtəlifliyin birliyi sayəsində hər iki tərəfin nümayəndələri Azərbaycan Xalq Cümhuriyyətinin müştərək ideoloji üst qurumunu yaratdılar.

Qeyd etdiyimiz kimi, XX əsrin əvvəllərində xalqı maarifləndirmək, "bəsirət sahibi etmək" ideyası müşahidə olunmağa başladı. Belə ki, pedaqoji fikir, məktəb qanunçuluğu, təhsil sistemi səviyyələri arasındakı ayrılıqlar daha kəskin şəkildə özünü göstərirdi. Bir tərəfdən ümummilli təhsil sisteminin yaradılmasına gətirib çıxaran böyük islahatlar həyata keçirilir, təhsilin məzmunu və səviyyəsi yüksəlir, mollaxanaların, mədrəsələrin məktəblərə təsiri zəifləyir, digər tərəfdən isə əhalinin böyük hissəsi yeni təhsildən kənarda qalır, məktəblərdə klerikallar və ya yalançı din adamları öz təsir imkanlarını qoruyub saxlayırdı. Mollanəsrəddinçilərin "iş planında" məktəblərin demokratikləşdirilməsi proqramı nəzərdə tutulsa da, praktikada onu həyata keçirmək kimi çətin bir məsələ dururdu. Ancaq bütün bunlara rəğmən mollanəsrəddinçilər mövcud məktəb sistemini tənqid etmiş, tədris və tərbiyə metodlarının yeniləşdirilməsini vahidlik prinsipi əsasında tələb etmiş, bu əsasda da ciddi yazılar, satirik şeir və felyetonlarla "Molla Nəsrəddin" jurnalında və digər mətbu orqanlarda çıxış etmişlər.

Ümummilli lider Heydər Əliyevin çox haqlı fikrinə görə, yazıçı, şair dövrün nəbzini tutmağı bacarmalı, aktual mövzuları gündəmə gətirməli, ideya və bədii cəhətdən onları yüksək səviyyədə həll etməyi bacarmalıdır. Çünki cəmiyyətin inkişafının bütün mərhələlərində pedaqogikanın əsas

vəzifəsi tərbiyələndirmək olmuşdur. Elə bu mənada da bir əsrdən artıqdır ki, Azərbaycanda demokratik pedaqoji ideyaların inkişafında “Molla Nəsrəddin” jurnalı mühüm rol oynamışdır. Mollanəsrəddinçilərin yaradıcılığının vüsəti, əhatə və təsir dairəsi son dərəcə genişdir. Onlar yaşayıb-yaratdığı dövrdə yalnız vətənləri Azərbaycanda deyil, Yaxın və Orta Şərqin bir sıra ölkələrində də xalq azadlıq hərəkatına, ictimai satiranın inkişafına qüvvətli təsir göstərmiş, onlarca satirik şair üçün nümunə olmuşlar. Akademik İsa Həbibbəyli yazır ki, mollanəsrəddinçilərin “yaradıcılığı bütün dövrlər üzrə yeni nəsillər üçün müstəqillik, azərbaycançılıq, millilik və vətəndaşlıq tərbiyəsi məktəbidir”[1].

Tədqiqat göstərir ki, hələ mollanəsrəddinçilərin sağlığında onların əsərləri yerli mətbuatla yanaşı, Peterburq, Həştərxan, Səmərqənd, İstanbul şəhərlərində və başqa yerlərdə çıxan qəzet, jurnal və məcmuələrdə də çap olunmuş, ümumi şöhrət tapmışdır. Həmçinin “hazırda “Molla Nəsrəddin” jurnalının komplektləri Rusiya ilə yanaşı Paris, Kembric, Ankara, İstanbul, Tehran, Helsinki və başqa şəhərlərin kitabxanalarında da mühafizə edilir”[2].

Cəlil Məmmədquluzadə də sonralar xatirələrində “Molla Nəsrəddin” jurnalından “nömrələrin bir neçəsinin İtaliyaya da gedib”[3] çıxmasını xatırladır.

İndiyə kimi mollanəsrəddinçilər və ya Məhəmməd Əmin Rəsulzadənin sözləri ilə desək “xalqçı və realist” “Molla Nəsrəddin” jurnalı haqqında kifayət qədər araşdırmalar aparılmış, kitab və kitabçalar yazılmış, dərslik və dərs vəsaitləri, albomlar tərtib edilmiş, namizədlik və doktorluq dissertasiyaları müdafiə olunmuşdur. Əziz Şərif (“Haqverdiyevin dramaturgiyası”. Bakı, 1946., “Molla Nəsrəddin” necə yarandı. Naxçıvan: Əcəmi, 2009), M.İbrahimov (Böyük demokrat (Molla Nəsrəddin). Bakı, 1957.), M.Qasımov (Mübariz inqilabi satirik “Molla Nəsrəddin” jurnalı və onun ictimai-siyasi istiqaməti (1906-1931). Bakı, 1967.), N.Axundov (“Molla Nəsrəddin” jurnalının nəşri tarixi. Bakı, 1959., Azərbaycan satira jurnalları. Bakı, 1968.), F.Ramazanov (Cəlil Məmmədquluzadənin etik görüşləri. Bakı, 1969.), N.Zeynalov (“Molla Nəsrəddin” jurnalı sovet hakimiyyəti illərində (1922-1931). Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiyanın avtoreferatı. Bakı, 1967.), M.Ağamirov (Sabirin dünya görüşü. Bakı, “Maarif”, 1983.),

---

1 Məmmədquluzadə C. Seçilmiş əsərləri. İki cilddə. I cild (Tərtib edəni və ön sözün müəllifi akademik İ.Həbibbəyli). Naxçıvan: «Əcəmi», 2009, səh.3

2 Molla Nəsrəddin jurnalının nəşri tarixindən (Nəşrə hazırlayanı və redaktoru A.Paşayev). Bakı: «Çaşıoğlu», 2009, səh.11

3 Məmmədquluzadə C. Seçilmiş əsərləri. Dörd cilddə. II cild. Bakı: «Öndər», 2004, səh.501

A.Zamanov (Müasirləri Sabir haqqında. Bakı, 1966.), İ.Həbibbəyli (Cəlil Məmmədquluzadə: мühiti və müasirləri. Bakı, 1997), Sahilə Orucova (Üzeyir Hacıbəyovun pedaqoji görüşləri. Bakı, 1988.), Zemfira Mehrəliyeva (Cəlil Məmmədquluzadənin pedaqoji fəaliyyəti və görüşləri. Bakı, 1984.), Tovuz İmanlı (Əli Nəzminin pedaqoji görüşləri. Bakı, 1999.), Rəşidə Məmmədova ("Molla Nəsrəddin" jurnalında təhsil-tərbiyə məsələləri. Bakı, 2011.), Lətif Hüseynzadə (Əliqulu Qəmküsarın həyat və yaradıcılığı. Bakı. 1947.), Ə.Mirəhmədov (Cəlil Məmmədquluzadə (Molla Nəsrəddin) və XX əsrin əvvəllərində Azərbaycan mətbuatının inkişafı məsələləri. Bakı, 1972.), F.Hüseynov (Əli Nəzminin həyat və yaradıcılığı. Bakı, 1965; Cəlil Məmmədquluzadə nəsrinin əsas problemləri. Bakı, 1973.), C.Xəndan (Sabirin həyatı və yaradıcılığı. Bakı, 1940.), A.Hacıyev (Tiflis ədəbi mühiti (1905-1915). Bakı, 1965.), Abuzər Cahangirov ("Molla Nəsrəddin" jurnalının Azərbaycan ədəbi dilinin təmizliyi uğrunda mübarizəsi. Bakı, 1950.), Turan Həsənzadə ("Molla Nəsrəddin" jurnalında İran və Cənubi Azərbaycan həyatının inikası. Bakı, 1972.), Qəzənfər Kazımov (Əbdürrəhim Bəy Haqverdiyevin dili ("Dağılan tifaq" pyesi üzrə). Bakı, 1966.), Sabir Əmirov (Cəlil Məmmədquluzadənin felyetonları. Bakı, 1967.), Əkbər (Məftun) Əkbərov (Məmməd Səid Ordubadinin poeziyası. Bakı, 1968.) və başqaları ayrı-ayrı vaxtlarda "Molla Nəsrəddin" jurnalı və mollanəsrəddinçilər haqqında dəyərli araşdırmalar aparmışlar. Mollanəsrəddinşünaslığın indiki səviyyəsi və parlaq nailiyyətləri, heç şübhəsiz, yaradıcı ziyalılarımızın bir əsrlik əməyinin məhsuludur. Bu tədqiqatların ərsəyə gəlməsində həm mollanəsrəddinçilərin müasirləri və qələm dostlarının, həm də tədqiqatçıların əməyi və səyi çoxdur. Mollanəsrəddinçilər irsinin tədqiqində pedaqoqlarla yanaşı, ədəbiyyatşünaslar, dilçilər, tarixçilər, filosoflar, iqtisadçılar, psixoloqlar və bir sıra başqa sənət, peşə sahibləri də fəal iştirak edirlər. Elmin müxtəlif sahələrini təmsil edən alimlərin birgə əməyi özünün gözəl bəhrəsini verir. Mollanəsrəddinçilərin həyat və fəaliyyətini bütövlükdə işıqlandıran monoqrafiyalarla bərabər, "Molla Nəsrəddin" jurnalı yaradıcılığının ayrı-ayrı problemlərindən bəhs edən tədqiqat əsərləri meydana çıxır. Mollanəsrəddinçilər satirasının sənətkarlığına, dil və üslub xüsusiyyətlərinə, publisist fəaliyyətləri və şifahi ədəbiyyat əlaqələrinə, ədəbi, fəlsəfi, iqtisadi və pedaqoji görüşlərinə, müasirlərinin onlar haqqındakı məqalə və xatirələrinə həsr olunmuş əsərlər məhz bu birgə əməyin bəhrəsi kimi qiymətləndirilməlidir.

Əlbəttə, bu dediklərimizdən heç də o nəticə çıxarılmasın ki, guya mollanəsrəddinçilərin həyat və yaradıcılıq yolları incəliklərinə qədər öyrənilmiş, "Molla Nəsrəddin" jurnalında və mollanəsrəddinçilərin yara-

dıcılığında tədqiq edilməli bir məsələ, bir problem qalmamışdır. Əksinə, mollanəsrəddinçilərin həyat yoluna və zəngin ədəbi-pedaqoji irslərinə dərindən nüfuz etdikcə, onların yaradıcılığı ətrafında tədqiqat və tapıntılar genişləndikcə öyrənilməmiş problemlər daha bariz, daha qabarıq şəkildə nəzərə çarpır. Mollanəsrəddinçilərin çoxcəhətli pedaqoji-ictimai fəaliyyətində elə məsələlər, elə problemlər vardır ki, bunlara indiyə qədər ya heç toxunulmamış, yaxud da ötəri və ya ümumi şəkildə bəhs olunmuşdur. "Molla Nəsrəddin" jurnalı ilə bağlı xarici ölkələrdə də çoxlu kitablar və məqalələr yazılmışdır. Ayrı-ayrı məqalələrdə "Molla Nəsrəddin" jurnalında təlim və tərbiyə məsələlərinin araşdırılmasına da təşəbbüslər göstərilmişdir. Dissertasiyanı yazarkən həmin qiymətli mənbələrdən və dəyərli araşdırmalardan bəhrələnmişik.

340 nömrəsi Tiflisdə, 8 nömrəsi Təbrizdə, 400 nömrəsi Bakıda (cəmi 748 nömrə) işıq üzü görən "Molla Nəsrəddin" jurnalının bir daimi üzvləri var idi, bu jurnalda "həmişəlik yazıçılarımız" adlandırılır. Bir də "Molla Nəsrəddin" jurnalının həmişəlik məslək dostları, əqidə dostları var idi ki, bu da yenə jurnalda "müxbirlərimiz"[1] adlandırılır.

Biz burada ilk dəfə olaraq "Molla Nəsrəddin" jurnalının müxbir üzvləri sayılan Üzeyir Hacıbəyov və Yusif Vəzir Çəmənzəminlinin də maarifçi görüşlərinin təhlilinə yer ayırmışıq. Çünki "Ü.Hacıbəyov və Y.V.Çəmənzəminli də yaradıcılıqlarının xarakterinə görə "Molla Nəsrəddin" ədəbi məktəbinə doğma olan yazıçılar sırasına daxil edilməlidirlər. Onların hər ikisinin "Molla Nəsrəddin" və C.Məmmədquluzadə ilə möhkəm bağlılığı olmuşdur"[2].

Göründüyü kimi, araşdırmalar göstərir ki, "Molla Nəsrəddin" jurnalında və mollanəsrəddinçilərin yaradıcı fəaliyyətlərinə, o cümlədən məktəb və maarif, tərbiyə məsələlərinin tədqiqinə hələ də zəruri ehtiyac vardır. Çünki, ayrı-ayrı tədqiqatlarda "Molla Nəsrəddin" jurnalının maarifçiliklə bağlı gördüyü işlər təhlil olunsa da, Azərbaycan məktəb və pedaqoji fikrinin demokratik maarifçi ideyaların inkişafı tarixində mollanəsrəddinçilərin oynadığı rol hələ də sistemli və əsaslı şəkildə tədqiq olunmamışdır. Ona görə də biz "Azərbaycan məktəb və pedaqoji fikrinin inkişafı tarixində "Molla Nəsrəddin" jurnalının və mollanəsrəddinçilər hərəkatının yeri və əhəmiyyəti" mövzusunda doktorluq dissertasiyası yazmağı vacib hesab etmişik.

**Tədqiqatın obyekti.** Azərbaycanda məktəb və pedaqoji fikir tarixini

1 «Molla Nəsrəddin» jurnalı, 1908, №48

2 Həbibbəyli İ.Ə. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Naxçıvan: «Əcəmi», 2009, səh.343

zənginləşdirən "Molla Nəsrəddin" jurnalının və mollanəsrəddinçilərin maarifçilik hərəkatında yerinin və əhəmiyyətinin öyrənilməsi prosesidir.

**Tədqiqatın predmeti**ni isə "Molla Nəsrəddin" jurnalının və mollanəsrəddinçilərin maarifçilik sahəsində yaratdıqları pedaqoji irsin, maarifçilik ideyalarının tərbiyəvi imkanlarının öyrənilməsinə xidmət edən müxtəliftipli əsərlərin forma, məzmun, üsul və yollarının elmi təhlili və dəyərləndirilməsi təşkil edir, Azərbaycan məktəb və pedaqoji fikrində cərəyan etmiş mənəvi-əsasların dərki problemini tam olaraq müəyyənləşdirir.

**Tədqiqatın məqsədi.** XX əsrin əvvəllərində Azərbaycanda mətbuatın yaranmasını şərtləndirən ictimai, ideya-siyasi, mədəni mühiti səciyyələndirməkdən, milli təfəkkürün inkişafında "Molla Nəsrəddin" jurnalının, mollanəsrəddinçilərin yeri və rolunu, pedaqoji hərəkatın səciyyəvi xüsusiyyətlərini dərindən təhlil edib üzə çıxarmaqdan, xalq pedaqogikasının təsviri, uşaqların milli ruhda tərbiyəsi – uşaq antologiyasının təşəkkülü və inkişafını, təhsil-tərbiyə nəzəriyyəsinin və demokratik pedaqoji fikrin inkişafında "Molla Nəsrəddin" jurnalının oynadığı rolu müəyyənləşdirməkdən ibarətdir.

Bu məqsədə çatmaq üçün aşağıdakı **vəzifələrin** yerinə yetirilməsi reallaşdırılmışdır:

– XX əsrin əvvəllərində Azərbaycanda maarifçi hərəkatın xarakterik xüsusiyyətlərini aydınlaşdırmaq;

– Mollanəsrəddinçilərdə ideya-siyasi mədəniyyətin mahiyyətini, rolunu
və mövqeyini üzə çıxarmaq;

– məktəb, teatr və milli mətbuatın inkişafında mollanəsrəddinçilərin fəaliyyətini və bu sahədə mürtəce qüvvələrlə mübarizəsini təhlil obyektinə çevirmək;

– Mollanəsrəddinçilərin müəllim hazırlığı məsələsində müəllimlərin tərbiyəvi fəaliyyətə hazırlanmasına imkan yaradan mühiti və pedaqoji-psixoloji şəraiti müəyyən etmək;

– təlimin ana dilində aparılması, bu dildə dərslik və dərs vəsaitləri hazırlamaq, proqram tərtib etmək və Azərbaycan dili təlimi uğrunda mətbuatın yaranmasını şərtləndirən ictimai-mədəni şəraiti səciyyələndirmək;

– Azərbaycanda milli ideologiyanın inkişafında "Molla Nəsrəddin" jurnalının oynadığı rolu ümumiləşdirmək;

– "Molla Nəsrəddin" jurnalında təhsil və tərbiyənin məqsədi, məzmunu, mahiyyəti və komponentləri ilə bağlı verilmiş fikirləri müqayisəli şəkildə təhlil etmək;

– Azərbaycan məktəb və pedaqoji fikrinin inkişafı tarixində “Molla Nəsrəddin” jurnalının və mollanəsrəddinçilər hərəkatının maarifçilik ideyalarının yeri və əhəmiyyəti sahəsini ilk dəfə olaraq məhz bu dissertasiya işində pedaqoji-psixoloji-etik istiqamətdə elmi şərhini vermək;

– Mollanəsrəddinçilərin mənəvi-əxlaqi kamilliyə və insani davranışa çağırış və əxlaqi keyfiyyətlərin təbliği ilə bağlı mövqeyini müəyyənləşdirmək;

– Mollanəsrəddinçilərin bədii yaradıcılığında və publisistikasında maarifçi pedaqoji-psixoloji prinsiplərin inikasını izləmək və sistemləşdirmək;

– “Molla Nəsrəddin” jurnalında gənc nəsli vətənə və xalqa məhəbbət ruhunda böyütmək, onlara mədəni vərdişlər, müsbət əxlaqi normalar aşılamaq yollarının üsul, vasitə və tərzlərini üzə çıxarmaq və s.

**Tədqiqatın elmi-metodoloji əsası**nı pedaqoji fakt, hadisə və proseslərin dərk olunması və dəyişdirilməsi məqsədilə tətbiq olunan nəzəri müddəaların, metod və vasitələrin məcmusu, tarixi müqayisəli araşdırma üsulu təşkil edir.

**Tədqiqatın metodları.** Tədqiqat işində tarixi-pedaqoji irsin toplanılması, sistemləşdirilməsi, mövcud ədəbiyyatın müqayisəli və nəzəri təhlili, induktiv və deduktiv metod və üsullarından istifadə olunmuşdur.

**Tədqiqatın mənbələri.** Tədqiqat problemi işlənərkən Azərbaycan dövlətinin təhsilimizin yeni mərhələsi ilə bağlı təhsil direktivlərindən, ümummilli liderimiz Heydər Əliyevin “Molla Nəsrəddin” hərəkatı, Cəlil Məmmədquluzadə ilə bağlı fikirlərindən, “Molla Nəsrəddin jurnalı”nın və mollanəsrəddinçilərin pedaqoji irsindən, dövrü mətbuat materiallarından, tədqiqata aid yazılı mənbələrdən istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** XX əsrin əvvəllərində Azərbaycanda mətbuatın yaranmasını şərtləndirən ictimai-mədəni mühit, pedaqoji hərəkatın səciyyəvi xüsusiyyətləri, demokratik pedaqoji fikrin inkişafında “Molla Nəsrəddin” jurnalının oynadığı mütərəqqi rol ilk dəfədir ki, doktorluq dissertasiyası səviyyəsində tədqiq olunur. Mollanəsrəddinçilərdə maarifçilik hərəkatı ciddi tarixi, ictimai-siyasi, eyni zamanda dolğun və şəffaf tərbiyəvi hadisə olaraq bir əsrlik geniş və zəngin bir dövrü əhatə etdiyi kimi, həm də öz baxış və görüşlərini, o cümlədən öz etikasını, öz ədəbiyyatını, öz pedaqoji-psixoloji nəzəriyyəsini, ümumilikdə öz pedaqoji fikir tarixini yaratmış, formalaşdırmış və möhkəmlətmişdir. Bu baxımdan milli klassik mənəvi irsimizin ən zəngin dövrü Azərbaycan maarifçiliyinin fundamental XX əsrin əvvəlləri mərhələsində yaranmış pedaqoji-psixoloji və publisistik əsərləri, həmçinin dövrün ictimai fəaliyyət qaynaqlarını pe-

daqoji aspektdə, xüsusilə də pedaqoji-etik kontekstdə araşdırıb öyrənmək, eyni zamanda elmi cəhətdən dəyərləndirmək pedaqoji fikir tariximizdə yeni bir səhifənin açılmasıdır. Təqdim olunan dissertasiya işinin elmi yeniliyi diqqəti aşağıdakı kimi cəlb edir:

1. "Molla Nəsrəddin" jurnalının, mollanəsrəddinçilərin maarifçilik ideyaları yeni fikir, yeni düşüncə və milli təfəkkürün inkişafı baxımından öyrənilmişdir;

2. İlk dəfə olaraq "Molla Nəsrəddin" jurnalında və digər jurnal və qəzetlərdə ("Dəbistan", "Həyat", "Həqiqət", "Yeni həqiqət", "İrşad", "Səda", "Tərəqqi", "Tuti", "Təzə həyat" və s.) Azərbaycan, Avropa, rus və Şərq maarifçiliyinin bir-birinə təsir məsələsi paralellər aparılmaqla müqayisəli şəkildə araşdırılmış, təhlilə cəlb edilmişdir;

3. Mollanəsrəddinçi maarifçilərin ictimai, ideya-siyasi görüşləri müasir pedaqoji aspektdə təhlil edilmiş, yeni fikir və görüşlər (Azərbaycan məktəb və pedaqoji fikrinin inkişafında "Molla Nəsrəddin" jurnalının və mollanəsrəddinçilərin müstəsna xidmətləri; xalqı inkişafdan, tərəqqidən saxlayan ruhanilərə, fırıldaqçı din xadimlərinə qarşı mübarizə apararaq milli oyanışa ciddi cəhd və s.) irəli sürülmüşdür;

4. Ana dilinin tərəqqisi uğrunda mübarizədə mollanəsrəddinçilərin rolu və fəaliyyəti, ana dilinin tədrisinin zəruriliyi və əhəmiyyəti haqqındakı fikirləri yeni baxışdan təhlil edilərək elmi ümumiləşdirmə aparılmışdır;

5. Mollanəsrəddinçilərin məktəbin demokratik əsaslarla qurulması uğrunda irəli sürdüyü ideyalar pedaqoji aspektdə təhlil edilmiş, yeni elmi fikirlər irəli sürülmüşdür;

6. Mollanəsrəddinçi maarifçi pedaqoqların müəllim və müəllim kadrları hazırlığı, müəllimlik fəaliyyətləri, həmçinin müəllim şəxsiyyəti kimi fikirləri və düşüncələri ümumiləşdirilmişdir;

7. Xalq pedaqogikasından istifadənin əhəmiyyəti, təsviri, təşəkkülü və inkişafı mollanəsrəddinçilərin görüşləri baxımından təhlil edilmiş, uşaqların milli ruhda tərbiyəsi məsələləri, həmin tərbiyəvi örnəklərin rolu müəyyənləşdirilmişdir;

8. "Molla Nəsrəddin" jurnalında ictimai və mənəvi əsarətin təsviri, mollanəsrəddinçilərdə mənəvi-əxlaqi kamilliyə və insani davranışa çağırış, əxlaqi keyfiyyətlərin təbliği tutarlı dəlillərlə əsaslandırılmışdır;

9. Mollanəsrəddinçi maarifçilərin yaradıcılığında xalqa, vətənə, ailəyə və əməyə münasibət, onların səmərəli təşkili məsələləri haqqında fikirləri müasir pedaqoji tələblər baxımından təhlil edilmişdir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqatda tətbiq olunan metodlardan, irəli sürülən ideya və tövsiyələrdən ali və orta məktəb müəllimləri,

tərbiyəçilər, pedaqogika sahəsində tədqiqat aparan dissertant və doktorantlar, monoqrafiya, dərslik və dərs vəsaitləri hazırlayan ziyalılar faydalana bilərlər. Həmçinin tədqiqatdan təhsil tarixi ilə bağlı Azərbaycançılıq ideologiyası, pedaqoji-psixoloji, həmçinin ədəbi-nəzəri problemlərlə məşğul olan tədqiqatçılar da istifadə edə bilərlər. Əsərdən müntəxəbatların, antologiyaların hazırlanmasında da istifadə etmək olar.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Tədqiqatın materialları pedaqoji jurnalistika və təhsil tarixi ilə bağlı gələcək tədqiqatlar üçün nəzəri örnək ola bilər.

**Müdafiəyə təqdim olunan müddəalar:**

1. Mollanəsrəddinçilərin ideya-siyasi tərbiyəsi elmi-nəzəri cəhətdən əsaslandırılır. Onların pedaqoji fəaliyyəti və maarifçi imkanları oxucu kütləsinin ümumi inkişafına, hər bir oxucunun bilikli, mənəvi cəhətdən zəngin olmalarına və beləliklə dünyagörüşünün formalaşmasına təsir göstərən çox mühüm amil kimi müəyyənləşdirilir;
2. Mollanəsrəddinçilərin təhsil, təlim və tərbiyə ilə əlaqədar görüşləri bu gün müasir pedaqoji aləmdə təhsilin təşkil formaları, öyrənmə üsulları, onun optimal surəti, elmlərarası əlaqə, müəllim-şagird-valideyn üçbucağındakı münasibətlərin öyrənilməsi işin səmərəli təşkilinə əhəmiyyətli dərəcədə müsbət təsir edə bilər;
3. Azərbaycanda həyata keçirilən təhsil islahatının yeni təlim metod və texnologiyalarından istifadə edilməsi tələbi, təhsilin məzmununa təbiət, cəmiyyət, insan, fəaliyyət haqqında biliklərin kompleks halına salınması və inteqrativ öyrənilməsi, təhsilin səmərəlilik nəticəsinin gözlənilməsi və digər müasir yanaşmalar öz əsasını "Molla Nəsrəddin" jurnalından, mollanəsrəddinçilər irsindən alır;
4. "Molla Nəsrəddin" pedaqogikasında təlimin, təhsilin, tərbiyənin, maarifçiliyin məqsədi insanlığa baş ucalığı gətirə biləcək şəxsiyyət yetişdirilməsini təmin edir;
5. Mollanəsrəddinçilərin yaradıcılığında maarifçilik məsələlərinin araşdırılması, o cümlədən təhsil, təlim məsələlərinin araşdırılması bu gün təlim prosesində, təhsilin vaxtı, təhsilin həcmi, intensivləşdirilməsi, təlim metodları (müşahidə, müqayisə, təkrar, möhkəmləndirmə, əks əlaqə) və didaktik əlaqənin ifadəsidir;
6. Əxlaqi sifət və görüşlərin "Molla Nəsrəddin" jurnalından götürülərək informasiya kimi verilməsi uşaq, yeniyetmə və gənclərin vətənpərvərlik, humanizm, əməksevərlik və s. bu kimi mənəvi keyfiyyətlərə yiyələnməsinə, onların görüş dairəsinin formalaşdırılmasına əhəmiyyətli təsir göstərir.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin "Pedaqogika və psixologiya" kafedrasında yerinə yetirilmiş, müzakirə olunub müdafiəyə məsləhət görülmüşdür. Dissertasiyanın əsas müddəaları Respublika və beynəlxalq əhəmiyyətli elmi-praktik konfrans və simpoziumlarda məruzə edilmiş, AAK-ın tövsiyə etdiyi Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Xəbərlər"ində, «Azərbaycan dili və ədəbiyyatı tədrisi» jurnalında, Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər"ində, Naxçıvan Müəllimlər İnstitutunun "Xəbərlər"ində, Azərbaycan Respublikasının Təhsil İnstitutunun "Elmi Əsərlər"ində, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "İctimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnal"ında, Gəncə Dövlət Universiteti və Lənkəran Dövlət Universitetinin "Xəbərlər" jurnalında və digər mətbu orqanların materiallarında işıqlandırılmış, bir (1) metodik vəsait 2 (iki) monoqrafiyada və 1 (bir) sual və tapşırıqlarla zənginləşdirilmiş dərs vəsaitində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil və fəsilləri əhatə edən doqquz yarımfəsildən, nəticə, təklif və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekt və predmeti, məqsəd və vəzifələri, elmi-metodoloji əsasları, tədqiqat metodları, tədqiqatın mənbələri, elmi yenilikləri şərtləndirən prinsiplər önə çəkilir, işin nəzəri-praktik əhəmiyyəti müəyyən edilir, müdafiəyə təqdim olunan müddəalar və aprobasiyası barəsində məlumat verilir.

Dissertasiyanın **"Molla Nəsrəddin" jurnalının təşəkkülü, inkişaf istiqamətləri və mollanəsrəddinçilərin maarifçilik görüşləri"** adlı birinci fəslində **"*Yeni fikir, yeni düşüncə və milli təfəkkürün inkişafında "Molla Nəsrəddin" jurnalının, mollanəsrəddinçilərin yeri və rolu*"**, **"*Mollanəsrəddinçilərin ictimai-sosial, ideya-siyasi görüşləri*"** kimi səciyyələnmiş yarımfəsillər daxilində geniş və əhatəli şəkildə tədqiq-təhlil olunmuşdur.

***"Yeni fikir, yeni düşüncə və milli təfəkkürün inkişafında "Molla Nəsrəddin" jurnalının, mollanəsrəddinçilərin yeri və rolu"*** yarımfəslində pedaqoji fikrin yaranması və inkişafı uğrunda aparılan mübarizədə "Molla Nəsrəddin" jurnalının və mollanəsrəddinçilərin rolu geniş surətdə araşdırılmışdır.

Məlumdur ki, xalqın maariflənməsində mollanəsrəddinçilərin xidmətləri çox böyükdür. Mollanəsrəddinçilər yaşadıqları cəmiyyətin "mikroblarını" kəskin tənqid atəşinə tutmuş və insanlarda eybəcər əxlaqi keyfiyyətlərin yaranmasına səbəbi mövcud mühitdə və quruluşda görmüşlər. Mollanəsrəddinçilər tərəqqidən geridə qalmanın əsas səbəbini mövhumatçılıqda axtarmış, mövhumatın dumanlı beyinlərdən silinməsi yollarını inandırıcı elmi dəlillər gətirməkdə, mollaxanalarda təhsilin yox səviyyədə olmasında, dünyagörüşü və ya elmi dünyagörüşün formalaşmasında axtarmışlar. Mollanəsrəddinçilər maarifçi amal və əməllərinin həyata keçirilməsi yolunda özünəməxsus xidmətlər göstərmiş, köhnəliyin, fanatizmin bütün təzahür formalarını tənqid etmiş, tərəqqiyə gedən yolda qarşılıqlı fikir və əməl birliyi formalaşdırmışlar.

Azərbaycan kəndlisinin mülkədarlardan, bəylərdən və xanlardan gördüyü zülm və işgəncə Azərbaycan məktəb və pedaqoji fikir tarixində kifayət qədər dərindən və ətraflı təsvir olunmuşdur. Mirzə Fətəli Axundovun komediyalarında, Həsənbəy Zərdabinin "Əkinçi"sində, Məhəmməd ağa Şahtaxtlının "Şərqi-Rus"unda, Əbdürrəhimbəy Haqverdiyevin, Məmməd Səid Ordubadinin, Əli Nəzminin, Cəlil Məmmədquluzadənin, Mirzə Ələkbər Sabirin, Əli Razi Şəmsizadənin, Mirzə Məhəmməd Hatif Axundovun, Mirzə Əli Möcüzün əsərlərində kəndli məsələsi, kəndlinin məruz qaldığı qeyri-insani zülm və zorakılıqlar müxtəlif forma və üsullarla qələmə alınmışdır. Buna baxmayaraq Sovet hakimiyyəti qurulandan sonra da Azərbaycanda kəndli məsələsi necə deyərlər ən xəstə ictimai məsələlərdən biri olmuşdur. Kəndlinin vəziyyəti pisləşməkdə davam etmiş, onlara olan zülm və təzyiq azalmamış, əksinə artmışdır. Buna görə də demokratik mollanəsrəddinçilər kəndlinin müdafiəsinə qalxmış, daim kəndlinin yaxın dostları olduqlarını bildirmiş və onların vəziyyəti ilə yaxından maraqlanmışlar.

Mollanəsrəddinçilər isə köhnə dimağları, düşüncələri, ümumiyyətlə tarixin çarxını yeni yola salmağı, dünyanı çirkablardan təmizləməyi, yer üzünə yeni baxış, yeni düşüncə, azadlıq və səadət gətirməyi qarşılarına məqsəd qoymuşdular. XX əsrin ilk illərində Azərbaycanın şəhər və kəndlərində kök salan cəhalətin, fanatizmin, avamlığın, geriliyin, yoxsulluğun acı nəticələrindən təsirlənən mollanəsrəddinçilər bu vəziyyətə qarşı "Cihad eləmək" üçün tribuna axtarırdılar. Ömər Faiq Nemanzadə "Xatirat"ım əsərində və ya başqa yazılarında qeyd etdiyi kimi, elə bir mətbuat istəyirdi ki, bu mətbuat xalqın dərdini xalqa desin, zəhmətkeşlərin ağır zəhməti hesabına yeyib yaşayanların mənəviyyat saflığını, mövcud ictimai quruluşun eybəcərliklərini açıb göstərə bilsin.

Mollanəsrəddinçilər avam xalqın düşdüyü dini-fanatizmin bataqlığını "allahın neməti" kimi qəbul edənlərin, "mənliyini itirənlərin", satqın məmurların, yalançı din xadimlərinin, ölü diríldən yalançı üləmaların, qoçuların nə böyük fəlakətlər yaratdığını təsvir etmiş və qeyd etdiyimiz kimi, nicat yolunu tapmağa çalışmışlar. "Hər bir millət üçün nicat yolu, balaca uşaqları məktəbə aparıb tərbiyə vermək ilə əmələ gəlir. Əgər belə olmasa heç bir şey fayda bağışlamaz. Nə hürriyyət, nə məşrutiyyət, nə cümhuriyyət, nə zənburiyyət, nə çəncuriyyət...".

Mollanəsrəddinçilər xalqda milli təfəkkürün inkişafını, bu mənada onları oyatmağı, ayağa qaldırmağı, hərəkətə gətirməyi, düşündürməyi, zülm və əsarətə qarşı mübarizəyə ruhlandırmağı, "camaatın bəsirət gözünü açıb dost ilə düşmənini ona tanıtmağı" qarşılarına məqsəd qoymaqla öz ölməz əsərləri ilə xalqı bəsirət sahibi etmiş, xalq azadlıq hərəkatına yaxından kömək göstərmiş, əzilən kütləni azad görmək arzusu ilə yeni fikir, yeni düşüncə və milli təfəkkürün inkişafında doğru fikir yürütmüş, aydın nəticəyə gəlmişlər.

I fəslin ***"Mollanəsrəddinçilərin ictimai-sosial, ideya-siyasi görüşləri"*** adlı ikinci yarımfəslində mollanəsrəddinçi pedaqoq və maarifçilərin yaradıcılığında siyasi həyatın aktual məsələləri ilə yanaşı, müsəlman həyatının digər mühüm məsələlərindən də – iqtisadiyyat, məişət, mədəniyyət, dövlət işləri, hüquq, əxlaq, təbabət və sairdən də bəhs olunur.

Kütlələrin maariflənndirilməsinə – həm siyasi-ictimai, həm də elmi cəhətdən – böyük kömək etməsi, yəni idrak və pedaqoji əhəmiyyətə malik olması mollanəsrəddinçilər yaradıcılığının səciyyəvi xüsusiyyətlərindən biri olmuşdur. Mollanəsrəddinçilərin (Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Əbdürrəhimbəy Haqverdiyev Mirzə Ələkbər Sabir, Əliqulu Qəmküsar, Qurbanəli Şərifzadə, Salman Mümtaz, Məmməd Səid Ordubadi, Əli Nəzmi, Mirzə Əli Möcüz və b.) şəxsi-nöqteyi nəzərləri, sosial inkişafın səviyyəsi ilə şərtlənən realist xətti-hərəkətləri vardır ki, əsərlərinin problematika və məzmunu həmin nöqteyi-nəzərlə, həmin xətti-hərəkətlə təyin olunur. Mollanəsrəddinçilər göstərirdi ki, dövlət işləri, hüquq, incəsənət, ədəbiyyat, siyasət, hətta diplomatiya yalançı şəriət ehkamlarının təsirindən azad deyildir. Cəlil Məmmədquluzadə yazırdı: "Gah vaxt olubdur ki, bəziləri bizdən soruşublar ki, nə səbəbə siyasətdən, dumadan, hüquqdan, hürriyyət və müsavatdan çoxluca bəhs eləmirik. Amma bizdən bunu soruşan ağalardan təvəqqe edirik bizə cavab versinlər görək, aya, mümkündürmü vəbanı dayandırmaq üçün 43 qoyun kəsən bir millətə, bir cahil lotunu özünə, haşa, Allah bilən bir camaata həmişə du-

madan və siyasətdən bəhs etmək? Biz belə qanırıq ki, xəyal, fikir və əqidə düzəlməsə, fel heç vaxt düzəlməz; o səbəbə ki, ikinci birincilərə tabedir"[1].

XX əsrin əvvəlləri Azərbaycan ictimai fikri tarixində yeni mərhələdir. XX əsrin əvvəlləri həm də ədəbi-pedaqoji görüşlərin mübarizəsi ilə diqqəti cəlb edirdi. Yeni dövr pedaqoji fikir mübadiləsinə böyük bir ehtiyac yaratmışdı. Mübahisəyə, müzakirəyə səbəb olan məsələlər isə çox idi. Bu kimi məsələlər hər bir mollanəsrəddinçiləri düşündürür və maraqlandırırdı. Sənətin həyata münasibəti, xəlqilik, xalq pedaqogikasından istifadə yolları və s. XX əsr tənqidində öz həllini gözləyirdi. Bildiyimiz kimi, hər bir mollanəsrəddinçinin dünyagörüşündən, hər qəzetin, hər jurnalın siyasi, ədəbi-pedaqoji və didaktik mövqeyindən asılı olaraq maarifçi görüşlər öz həllini tapırdı. Başqa sözlə, bu məsələlərə cavab verərkən hər müəllifin, hər mətbuat orqanının ədəbi-pedaqoji-psixoloji və didaktik mövqeyi öz-özlüyündə meydana çıxırdı. Mollanəsrəddinçilər çox işlərə əl aparır, çox sirləri açır, pərdələri qovzayır, çox çirkabları qurdalayıb "üfunətini" dünya-aləmə yayırdı. Tək riyakar, yalançı din xadimlərinin yox, hakim sinfin azğınlığını da bütün açıqlığı ilə xalqa göstərirdi. Mollanəsrəddinçilər "zülm və istismar cəlladlarını xalqın canına daraşmış "zəli", "mikrob", "çəyirtkə", "həşərat" adlandıraraq"[2] çarların, şahların, sultanların, xanların, bəylər və onların muzdlu nökərlərinin xalqı "zorla, cəbrlə, zülmlə itaətdə" saxladıqlarını göstərirdilər.

Mollanəsrəddinçi maarifçilər həm həm o taylı, bu taylı Azərbaycanda, həm İranda, həm də türk dünyasında baş verən zərərli ictimai-siyasi hadisələrə qarşı sərt reaksiya vermişlər. Mollanəsrəddinçilər çar Rusiyasının, İran, Türkiyə və hətta Sovetlər dönəmində Nokalayları, Stolıpinləri, Məmmədəli şahları, Zilli-Sultanları, Sultan Əbdülhəmidləri və b. azadlıq və insan hüquqlarının tapdalamasını, onlar tərəfindən özbaşınalığın, istismarın hökm sürdüyünü, xalqın istək və arzularını öz şeir və felyetonlarında məharətlə təsvir etmişlər. Hadisələrin səbəbkarlarının tənqid atəşinə tutulmaları əxlaqi, tərbiyəvi mühiti pozanlara qarşı sərt yazılar yazmaları pedaqoji fikir tarixi üçün mühüm əhəmiyyət kəsb edir.

"Molla Nəsrəddin" jurnalının nəşrinin Bakı mərhələsi (1922-1931) də tarixdə silinməz izlər buraxmışdır. Sərt sovet rejimi dönəmində mübariz mollanəsrəddinçilər sözlərini deməyi bacarmış və ən əsası da milli mövqedən çıxış etməyi bacarmışlar. Mollanəsrəddinçilər ilk əvvəl

1 «Molla Nəsrəddin» jurnalı, 1907, №36

2 Paşayev A.Ə. «Molla Nəsrəddin»: dostları, düşmənləri. Bakı: «Çaşıoğlu», 2010, səh.22

Şura üsul-idarəsinə "əsl xalq təmsilçisi kimi inanmış"[1] olsa da, yeni cəmiyyəti "sidqi ürəklə, qəlbdən gələn bir səslə"[2] alqışlasa da, "Şura" felyetonunda "O şey ki, qoca "Molla Nəsrəddin"in qəlbinə və məzacına hər təbabətdən müvafiqdir – onun adı Şuradır"[3] desə də, az sonra cəmiyyətin həyatındakı əyrintiləri yaxından izləmiş və yalan-palan dolu olan yazılarla razılaşmamış, hesablaşmamışlar. "Xalq kütlələrini əsarət və cəhalətdə saxlamaq üçün çar mütləqiyyəti Zaqafqaziyada feodal-patriarxal qaydalarını qəsdlə möhkəm saxlamağa çalışırdı"[4] və həmçinin Çar Rusiyasının "Molla Nəsrəddin"ə qarşı apardığı xoşagəlməz işləri Şura hökuməti sanki davam etdirmişdir. Ancaq yenə də bütün bunlara rəğmən "Molla Nəsrəddin" jurnalı ilk əvvəldən tutduğu yoldan dönməmiş, mübarizəsini davam etdirmişdir.

Xalqın acınacaqlı vəziyyətini vətəndaşılıq kədəri ilə qələmə alan mollanəsrəddinçilər ictimai quruluşun öz-özünə məhvini gözləməyin səhv olduğunu, bunun üçün xalqın, vətənin mənafeyi və tərəqqisi uğrunda mübarizə aparmağı başlıca amil saymış, hər şeyə rəğmən ictimai-siyasi həyatın, pedaqoji-psixoloji, ədəbi-mədəni həyatın inkişafı üçün geniş imkanlar, insanların məişətində və şüurunda mühüm dönüş yaratmış, böyük ideallar uğrunda mübarizə aparmışlar.

**"Mollanəsrəddinçi maarifçilərin təhsilin demokratikləşdirilməsi uğrunda mübarizəsi"** adlanan II fəslin birinci ***"Ana dilinin, milli mətbuatın tədrisi və tərəqqisi uğrunda mübarizədə mollanəsrəddinçilərin rolu və fəaliyyəti"*** yarımfəslində isə "Molla Nəsrəddin" jurnalında millətə milli mənlik şüuru aşılamaq, mənəvi dirilik dərsi keçmək üçün təlimin ana dilində aparılması ideyası geniş surətdə təbliğ edilir, ana dilinin tədrisi bütün təlim işinin mərkəzinə qoyulmalıdır kimi problemlər tədqiq-təhlil edilmişdir.

Dissertasiyanın bu yarımfəslində maarifçi mollanəsrəddinçilərin Azərbaycan xalqına axıra qədər sadiq qalmaları, Azərbaycan xalqının özü qədər qədim mədəniyyətinə və dilinə hörmət bəsləmələri, Ana dilinin əhəmiyyəti və məktəblərdə onun tədrisinin jurnal səhifələrində ardıcıl olaraq irəli sürülməsi və eləcə də Azərbaycan pedaqoji fikrinin inkişafına müsbət təsiri məsələləri geniş təhlil və şərh olunmuşdur.

Qeyd edək ki, maarifçi demokratların ana dili məsələsinə fəal münasibət bəsləmələri səbəbsiz deyildi. XX əsrin əvvəllərindən başlayaraq

1 Əliyev R. Cəlil Məmmədquluzadə və sovet hakimiyyəti. «Açıq söz» qəzeti, 1994, №40

2 Zeynalov N. Molla Nəsrəddin Bakıya gəlir //ADPU-nun «Elmi əsərlər»i (dil və ədəbiyyat seriyası, səh.60

3 «Molla Nəsrəddin» jurnalı, 1922, №1

4 Şərif Ə. «Molla Nəsrəddin» necə yarandı. Naxçıvan: «Əcəmi», 2009, səh.72

dil məsələsi Azərbaycanda ictimai-siyasi və mədəni həyatın çox müxtəlif sahələrini özündə cəmləşdirən bir amilə çevrilmişdir. Siyasətdən danışanlar da, iqtisadiyyatdan bəhs edənlər də, mədəniyyətdən yazanlar da bu məsələyə toxunmadan keçinə bilmirdilər. Elmi pedaqogikanın banisi Yan Amos Komenski, İohan Henrix Pestalossi ana dilinə böyük əhəmiyyət vermiş, tədrisin ana dilində aparılması ideyasını irəli sürmüşlər. Komenski yazırdı ki, "Ana dili şüurun tədricən əhatə etdiyi şeylərlə əlaqədar olduğu üçün labüddən bir neçə il, yəni səkkiz və on il, başqa sözlə bütün uşaqlıq dövrünü və yeniyetmə dövrünün bir hissəsini tələb edir. Bundan sonra bir ildə kifayət dərəcədə öyrədilə bilməsi mümkün olan başqa bir işlək dilə keçilməlidir"[1].

Əslində bütün dünya pedaqoqları dil öyrənməyə məktəbəqədər yaş dövründən başlamağı, məhz məktəbəqədər yaş dövründən savad təlimi dövrünün bitdiyi dövrlərdən etibarən ana dili ilə yanaşı xarici dillərdən birinin də uşaqlara öyrətməyi məqsədəuyğun hesab etmişlər. Bu xüsusda Yan Amos Komenski yazırdı ki, "Ana dilinə yiyələnmədən adama xarici dil öyrətmək – uşağa yeriməyi öyrətmədən at minməyi öyrətmək kimi şeydir"[2].

XIX əsrin sonu, XX əsrin əvvəllərində rus imperiyasının müstəmləkə siyasəti ilə əlaqədar başqa millətlərin dilinə qiymət verilmirdi. Bütün dövlət məktəblərində tədris rus dilində aparılırdı. Azərbaycanda olan dövlət məktəblərində azərbaycanlı şagirdlərə doğma dillərində danışmalarına belə icazə verilmirdi.

Xalqımızın böyük xoşbəxtliyidir ki, onun M.F.Axundov, Həsənbəy Zərdabi, Firidunbəy Köçərli, Məmməd Səid Ordubadi, Mirzə Ələkbər Sabir, Ömər Faiq Nemanzadə, Cəlil Məmmədquluzadə, Mirzə Əli Möcüz kimi maarifçiləri bu təhlükəni vaxtında hiss etmiş, doğma Azərbaycan dilini yad təsirlərdən qorumaq üçün var qüvvələri ilə mübarizə meydanına atılmış, bu dilin təmizliyi, saflığı uğrunda sözün əsl mənasında fədakarlıq göstərmişlər.

Azərbaycan maarifpərvərləri ana dilində məktəb açmaq, dərs kitabları, proqramlar və s. yaratmaq üçün çalışarkən bu işin həyata keçməsinə mane olanlarla da mübarizə aparmalı olurdular. "Hamının evində "Dəxil", "Qumri", "Dilsuz" (Dəxil, Qumri, Dilsuz mərsiyə yazan müəlliflərin təxəllüsləridir – K.C.) və qeyri mərsiyə kitabları doludur"[3].

1 Komenski Y.A. Seçilmiş pedaqoji əsərləri. Bakı: «Azərnəşr», 1961, səh.190

2 Komenski Y.A. Böyük didaktika (Elmi redaktoru, nəşrə hazırlayanı və ön sözün müəllifi Əməkdar elm xadimi F.Rüstəmov). Bakı: «Elm və təhsil», 2012, səh.229

3 «Molla Nəsrəddin» jurnalı, 1911, №8

Sözdə ana dilində danışmağı istəyən, lakin həqiqətdə ana dilini bilməyən, ona hörmət etməyən insanların ikiüzlülüyünü "Molla Nəsrəddin" jurnalı ifşa edirdi. Əli Nəzmi həmvətənlərinə üz tutaraq "Kefsiz" imzası ilə yazırdı:

"Dil" var ikən – gəlin – "lisan" deməyək,
Döndərib farscaya "zəban" deməyək.
Hər kəsin var sözü, dili, ağzı,
Ağıza and içək – "dəhan" deməyək.
"Ərəbi" göndərək öz evlərinə
"Farsa" qal bizdə "mihman" deməyək
..."Buğda"ya "gəndüm", "arpa"ya daxi "çov"
Əkməyə, suya "ab", "nan" deməyək...[1].

Mollanəsrəddinçilər Azərbaycan dilini bəyənməyən, ana dilinə laqeyd yanaşan, bütün hərəkətlərində, praktik işlərində onun qiymətini alçaldan adamlara qarşı amansız olmuş və onu jurnal səhifələrində ciddi şəkildə tənqid etmişlər. Cəlil Məmmədquluzadə də bu xüsusda öz xatiratında yazırdı: "Rus dilini gərək belə danışaydıq ki, ruslardan bilmərrə fərqimiz olmayaydı. Və bu iki mühüm dərslərdən (elmi-ilahi dərslər nəzərdə tutulur – K.C.) savayı qeyri dərslər nisbətən o qədər lüzumlu nəzərə gəlmirdi. Məsələn, türk dilinin proqramda varlığı yoxluğuna bərabər idi. Və beş ilin müddətində əgər qabaqlarda molla yanında bir şey oxumamış olsaydım, adımı düz yazmaq qədərincə türk dilini öyrənə bilməyəcəkdim"[2].

Çar Rusiyasının imperiya siyasəti aydın idi. Azərbaycan xalqının bütün milli mədəniyyət təşəbbüslərini boğmaq, bu xalqlar üçün ana dilində açılan məktəbləri qadağan etmək, dövlət və ictimai təşkilatlardan ana dilini sıxışdırıb çıxarmaq. Hətta Vladimir İliç Lenin də bu bitərəfli siyasəti bəyənmədiyini, belə bir siyasətə qəti etirazını bildirərək yazırdı: "Rusiyada əhalinin yarısından çoxu, demək olar, beşdə üçü (dürüstü 57 faizi) milli əsarət altındadır, onlar hətta ana dilindən də azad istifadə edə bilmirlər, onları zorla ruslaşdırırlar"[3].

Bir daha qeyd edək ki, çar hökumətinin yerlərdəki nümayəndələri müxtəlif yollarla Azərbaycan dilində dərs verilməyə maneçilik göstərirdilər. Belə vəziyyət Sovetlər dönəmində də davam etmiş və bu

---

1 «Molla Nəsrəddin» jurnalı, 1924, №5

2 Məmmədquluzadə C. Cümhuriyyət (Tərtib edəni və ön sözün müəllifi akademik İ.Həbibbəyli). NDU, «Qeyrət» nəşriyyatı, 2002, səh.14

3 Lenin V.İ. Əsərlərinin tam külliyyatı, XXVIII cild, Bakı: «Azərnəşr», 1981, c.28, səh.268

müddətdə hökumət həmişə Azərbaycan dilində aparılan tədris işinə cürbəcür vasitələrlə əngəllər törətməyə çalışmışlar.

"Molla Nəsrəddin" jurnalı ana dili məsələsində İlminiskiləri, Miroyevləri, Levinskiləri kəskin tənqid edərək deyirdi ki, onlar dilimizi atıb bizi ruslaşdırmaq istəyirlər! O dövrdə ana dilinin inkişafına mane olan amilləri jurnal belə səciyyələndirirdi: bir tərəfdən hürufat qüsuru, digər tərəfdən dil qüsuru əlimizi və ayağımızı bağlayıb irəli keçməyə qoymur. Qiraət kitablarımızda "ata" və "yaxşı" kimi çox işlənən və əziz sözlər dərman üçün belə axtarılsa, tapılmaz. Bu, millətə xəyanət etməkdən başqa bir şey deyildir[1].

Digər tərəfdən dilimizə olan ögey münasibət bir para özünü "ziyalı" sayan "müəllim"lərimizin etinasızlığından da irəli gəlir. "Müsəlman müəllimləri təziyəsi"ndə adlı felyetonda oxuyuruq: "Bacılar, vurun başınıza vallah belə günlərə tab eləmək olmaz, Allaha rəvadır ki, bizim məktəbdə rus dili olmasın. A bacılar rus dilini bilməyən heç insan deyil, боже мой (Boje moy), rus dilini bizdən atmenyat edirlər, Vay, vay, vaxsey. Ağlayın ağlamaq vaxtı gəldi:

Əzizim yarım alma,
Yeməyə yarım alma,
Fələkə çox yalvardım,
Canım al, rus dilin alma.
    Əzizim rus dilidir,
Can dərmanı rus dilidir,
Vətən əldən getsə də,
Mənə qalan rus dilidir.
    Əzizim Zülfüqara,
Tökülüb üzə zülf qara,
Əlimdən rus dilin alanı,
Tapşırdım Zülfüqara...[2].

Ömər Faiq Nemanzadənin "Milli dilində danışmaq istəməyənin millətpərvərlikdən dəm vurması yalançılığın təzə modasından özgə bir şey ola bilməz" – sözləri ilə yarımfəsilə son vurarkən belə qeyd edək ki, mollanəsrəddinçilərin ana dili sahəsində tutduğu mövqe çox mütərəqqi və düzgün olmuşdur, ona görə də böyük xalq kütləsi onu sevə-sevə oxuyur və gələcək nəsil də oxuyacaqdır.

1 «Molla Nəsrəddin» jurnalı, 1913, №42

2 «Molla Nəsrəddin» jurnalı, 1911, №21

***“Məktəb və teatrın inkişafında mollanəsrəddinçilərin rolu”*** mövzusu II fəslin ikinci yarımfəslinin tədqiq-təhlil obyektidir. Bu yarımfəsildə qeyd edilir ki, “Molla Nəsrəddin” jurnalı nəşrə başladığı ilk günlərdən həm böyüyən nəslin, həm də yaşlıların təlim-tərbiyəsi məsələləri ilə ciddi məşğul olmuşdur. Jurnalın elə bir nömrəsini tapmaq olmaz ki, orada məktəb-maarif, təlim-tərbiyə məsələlərinə toxunulmamış olsun. Jurnalın bu problem ətrafında apardığı mübarizəsinin əsas məqsədi – gənclərin təlim-tərbiyə işlərini yaxşılaşdırmaq, köhnə molla məktəblərini yeni üsullu məktəblərlə əvəz etmək, təlim üsullarını, onun məzmununu dəyişdirmək, əhalinin savadlanmasına kömək etmək, bədən cəzasını məktəblərdə qadağan etmək və s. məsələlər idi. Jurnalda belə bir fikir tez-tez vurğulanırdı ki, müasir məktəb olmasa müasir gənclik də olmaz. Xalqın mədəniyyətinin inkişafını, şüurunun oyanmasını, müasir tədris ocaqlarının yaradılmasını və burada dərs deyən əsl xalq müəllimlərinin hazırlanmasını jurnal təkidlə tələb edirdi.

Çar hökumətinin, mollaların, axundların və ümumiyyətlə yeniliyi sevməyən köhnə düşüncəli adamların vahiməyə düşərək xalq maarifinə qarşı kəskin hücumlar etdiyi bir dövrdə mollanəsrəddinçilər mətbuat səhifələrində çar hökumətinin maarif sahəsindəki siyasətini bəzən ciddi, çox zaman isə satirik əhval ruhiyyədə atəşə tuturdu. Mollanəsrəddinçilərin, o cümlədən M.Ə.Sabirin maarif və məktəb məsələlərinə həsr olunmuş “Təhsili-Elm” [“Molla Nəsrəddin” jurnalı. 1906, №20], “Ata nəsihəti” [“Molla Nəsrəddin” jurnalı. 1906, №21], “Şəhərimizdə realni uşqola təşkilindən...” [“İrşad” qəzeti. 1906, №237]; Əli Nəzminin “Məktəb” [“Molla Nəsrəddin” jurnalı. 1908, №22], “Müxtəsər” [“Molla Nəsrəddin” jurnalı. 1911, №13]; Salman Mümtazın “Mərhum müəllim Naci həzrətlərinə bənzətmə” [“Molla Nəsrəddin” jurnalı. 1910, №38]; “Başımızda sınan təkfir çomaqları” [“Molla Nəsrəddin” jurnalı. 1911, №10]; “Məktəbə düşmən olan bəzi müqəddəs (?) üləma” [“Yeni həqiqət” qəzeti. 1911, №11]; “Təlimə dair odlu yazılmış məqalələr” [“Yeni həqiqət” qəzeti. 1911, №32], Məmmədəli Manafzadə Sabitin “Ədəbiyyat” [“Məzəli” jurnalı, 1915, №1], “Ay haray” [“Məzəli” jurnalı, 1915, №5]; Səməd Mənsurun “Atanın oğlu ilə davası” [“Tuti” qəzeti, 1915, №7]; Məmməd Səid Ordubadinin “Bir söylə görüm” [“Babayi-Əmir”, 1916, №3] və s. adlı şeirləri xalqı elmə, mədəniyyətə və məktəbə çağırır.

I Fəslin ikinci yarımfəslində mollanəsrəddinçilərin Azərbaycanda milli məktəblərin həm açılması, həm yeni dərs üsulu ilə işləməyin mütərəqqi cəhətlərinin təbliğ edilməsi sahəsindəki fikirləri və görüşləri üzə çıxarılmışdır.

***"Mollanəsrəddinçi maarifçi-pedaqoqların müəllim və müəllim kadrları hazırlığı haqqında ideyaları"*** yarımfəslində mollanəsrəddinçi maarifçilərin məktəblərdə ana dili dərslərinə verilən saatları artırmaq, yeni mükəmməl proqramlarla fənləri tədris etmək, məktəblərdə tədrisin keyfiyyətini yüksəltmək, məktəblərin tətillərini düzgün bölüşdürmək, vahid dərs bölgüsü və dərs cədvəlinə əməl etmək, ibtidai təhsilin ümumi və məcburi olması, təlimdə yeni üsullardan istifadə etmək və faydalı dərsliklər hazırlamaq kimi ideya və görüşləri təhlilə cəlb olunur.

Qeyd olunur ki, XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan elmin tərəqqisində geridə qalırdı. Bunun bir səbəbi Rusiya imperiyasının düşünülmüş şəkildə apardığı milli müstəmləkə siyasətindən irəli gəlirdisə, digər səbəbi isə avam xalqın islam dininə kor-koranə baxışından irəli gəlirdi. Mollanəsrəddinçilər də bunları görərək camaat arasında, mətbuat vasitəsilə geniş təbliğat işi aparır, elmin, maarifin əhəmiyyətini, mədəni yaşayış üstünlüyünü xalqa başa salır və qəflət yuxusundan oyatmağa çalışırdılar.

Komenski yazır ki, "əgər müəllimlər şagirdlərə güzəştlə və nəzakətlə yanaşsalar, şagirdlərin qəlbini sərt ifadələri ilə sındırmasalar, əksinə, onları atalıq məhəbbəti, nəvazişi və nəsihətlərlə özlərinə cəlb etsələr, məşğələlərə başlarkən məşğələlərin üstünlüyünü, xoş və asan olduğunu açıb göstərsələr; əgər müəllimlər ən çalışqan şagirdləri bəzən tərif etməklə... həvəsləndirsələr, əgər onlar şagirdləri öz evlərinə dəvət edərək, orada və eləcə də sinif otağında onlara sonralarda öyrənməli olacaqları şeylərin şəkillərini, optika və ya həndəsi alətləri, qlobusları və uşaqları heyrətə gətirəcək bu kimi başqa şeyləri göstərərək, izah etsələr; daha sonra, əgər onlar uşaqlar vasitəsi ilə bəzən ata-analara hər hansı bir məlumat göndərsələr uşaqda biliyə həvəs oyanar; bir sözlə, əgər müəllimlər şagirdlərinə şəfqətli münasibət göstərsələr, asanlıqla onların qəlbini özlərinə cəlb edərlər ki, uşaqlar məktəbə gəlməyə evdə qalmaqdan daha artıq həvəs göstərərlər"[1]. Bu mənada mollanəsrəddinçilər də qeyd edir ki, müəllim pedaqogika, psixologiya elmlərini dərindən bilməli, xalq balalarını sevməyi bacarmalı, ana dilinin təmizliyini və gözəlliyini qorumalı və həmçinin geniş dünyagörüşlü, elmli, mərifətli bir müəllim olmalıdır: "Tərbiyə işində cüzi səhlənkarlıq uşağın gələcəyini pozub evini yıxar. Zatən bizim oxumuşlarımızın da bu gün hamını məyus edən bəzi pis-pis əməllərinə də onların uşaqlıqda fəna yolda tərbiyə olunmalarıdır"[2].

1 Komenski Y.A. Böyük didaktika (Elmi redaktoru, nəşrə hazırlayanı və ön sözün müəllifi Əməkdar elm xadimi F.Rüstəmov). Bakı: «Elm və təhsil», 2012, s.122-123

2 Hacıbəyov Ü. Əsərləri. Altı cilddə. IV cild. Bakı: «Azərnəşr», 1968, səh.162

O zaman məktəb adı ilə yaranmış və illər boyu məscidlərdə fəaliyyətini davam etdirən mollaxanalar və başqa milli tədris müəssisələri dövrün tələblərinə qətiyyən cavab vermir, millətin gələcəyi olan uşaqları şikəst edirdilər. Əbdürrəhimbəy Haqverdiyev yazırdı ki, "məktəblərdə tədris kitabları və camaatın oxuduğu kitablar ancaq "Leyli və Məcnun", "Gülüstan", "Bustan", "Tarixi – Nadir" və bu qəbil İranda çap olunmuş və əksəri fars dilində yazılmış kitablar idi"[1].

Mollanəsrəddinçilərin fikirlərindən aydın olur ki, onlar, müəllim və məktəb haqqındakı fikirlərə pedaqogikanın azman klassikləri sayılan Yan Amos Komenski, Con Lokk, Jan Jak Russo, İohan Henrix Pestalossi, Herbert Spenser, Konstantin Dimitriyeviç Uşinski, Nikolay İvanoviç Piroqov, Dimitri İvanoviç Pisarev və başqalarının əsərlərindən öyrənmiş və fikir baxışları ilə də üst-üstə düşür. İnsanı "müdrik" görmək istəyən, təlimdən ardıcıllıq, əyanilik, "qızıl qayda-qanun" tələb edən, əzbərçiliyi pisləyən, şagirdin öyrəndiyi hər şeydən "gündəlik həyatda nə kimi fayda görəcəyi" barədə düşünən Ömər Faiq Nemanzadənin sözləri ilə desək pedaqogikanın babası sayılan Komenskinin, "özgələr üçün hər şey, özüm üçün heç şey!" – deyən, "insan təbabətini təkmilləşdirmək" uğrunda çalışan Pestalossinin, "vətənə mümkün qədər çox fayda verməyi" özünə şüar edən, insanı "əməyə hazırlamağı" tərbiyənin əsas vəzifəsi sayan, ana dilinə böyük məhəbbət oyadan Uşinskinin, "müasir cəmiyyətin günahları"ndan uzaq, "həqiqi insan" tərbiyə etməyə çağıran Piroqovun Azərbaycan klassikinin təkcə pedaqoji görüşlərinin deyil, bütün ictimai ideallarının müəyyənləşib inkişaf etməsi üçün faydalı və ibrətamiz olduğunu pedaqogika mütəxəssislərinin apardığı tədqiqatlar da sübut edir. Təsadüfi deyil ki, Məmmədquluzadənin əsərlərində bir sıra böyük sosial problemlər xalqın maariflənməsi, məktəb, müəllim, təlim-tərbiyə üsulları, tədris vəsaiti və s. məsələlərlə əlaqələndirilir. Şagirdlərin anlayışını, öz düşüncələrini ifadə etmə qabiliyyətini və təfəkkürünü inkişaf etdirmə yollarına Üzeyir Hacıbəyov da toxunaraq yazırdı: "Didaktika səndən tələb edir ki, bu öyrədilən şeyi intixab (bir şeyin ən yaxşısını ayırmaq – K.C.) etdiyin bir üsulla öyrədən zaman bu qaydalara əməl et, yəni:

1. Uşağa aşina olan şeylərdən başlayıb biganə olduğu şeylərə keç.
2. Uşaq gözü ilə dərk etdiyi şeylərdən başlayıb, xəyal ilə dərk olunan şeylərə keç.

1 Haqverdiyev Ə. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı: «Lider», 2005, səh.376

3.Sadə və bir əczalı şeylərdən başlayıb mürəkkəb və çox əczalı şeylərə keç və i.a.”[1].

Mollanəsrəddinçi Üzeyir Hacıbəyovun belə didaktik yanaşmaları onu göstərir ki, görkəmli maarifçi Yan Amos Komenskinin “Böyük didaktika”, “Ətraf aləm şəkillərdə” əsərlərindəki didaktik yanaşmalar ilə tanış imiş.

Bütün bu deyilənlərin nəticəsi olaraq mollanəsrəddinçilərin müəllim və müəllim kadrları hazırlığı haqqındakı fikirlərini aşağıdakı kimi səciyyələndirmək olar:

- müəllim xalq yolunda fədakarlıqla çalışmalıdır;
- müəllim uşaqların fərdi xüsusiyyətlərini, qabiliyyətlərini nəzərə almalıdır;
- müəllim uşaqların istək və arzularını, bacarıqlarını, maraq və meyllərini öyrənməli, təlim-tərbiyə prosesində nəzərə almalıdır;
- müəllim şagirdlərini sevməli, onlarla xoş ünsiyyət saxlamalıdır;
- müəllim şagirdlərin təlim-tərbiyəsində valideynlərə köməklik göstərməlidir;
- müəllimin şagirdlərə verdiyi tələb onların yaş xüsusiyyətlərinə uyğun və aydın olmalıdır;
- müəllim uşaqları təbiət və cəmiyyət haqqında mümkün qədər dərin və hərtərəfli biliklərlə silahlandırmalı, onlarda doğru və tez düşünmək qabiliyyətini inkişaf etdirməlidir;
- müəllim səbirli, təmkinli olmalı, mühitin etinasızlığına diqqət verməlidir;
- müəllim hazırlığı darülmüəllimdə, ruhani hazırlığı isə darülelmdə aparılmalıdır;
- müəllim yüksək mənəviyyatlı, vicdanlı, namuslu, əfəndi bir şəxs olmalıdır;
- müəllim təlim-tərbiyə sirlərinə, pedaqoji ustalığa yiyələnməli, öz işini ləyaqətlə yerinə yetirməyi bacarmalıdır;
- müəllim uşaq ruhunun qabil bilicisi olmalı, qəlbinə hakim kəsilməlidir;
- müəllim xalqın ümumi tərəqqisi və maariflənməsinə çalışmalı, vətən uğrunda malını, canını əsirgəməməlidir;

1 «Tərəqqi» qəzeti, 1909, №50

- xalqın milli-mənəvi taleyinin göstəricisi olan müəllim kadrları hazırlığına xüsusi diqqət vermək lazımdır; müəllimlərin ixtisas və pedaqoji-psixoloji səviyyəsinə ciddi fikir verməlidir.

Beləliklə, biz dissertasiyanın bu yarımfəslində mollanəsrəddinçilərin müəllim və müəllim kadrlarının hazırlanması haqqında fikirlərini, bu günümüzlə səsləşən, yaxın və perspektivlərin müəyyənləşdirilməsi baxımından görüşlərini əsaslandırmağa çalışmışıq.

II fəslin dördüncü, yəni ***"Mollanəsrəddinçi maarifçilərin yaradıcılığında xalq pedaqogikasının yeri, mövqeyi, uşaqların milli ruhda təhsili, uşaq ədəbiyyatının təşəkkülü və inkişafı məsələləri"*** yarımfəsli II fəslin yeni tədqiqat nəticəsi hesab olunmalıdır. Çünki, mollanəsrəddinçilərin yaradıcılığındakı və "Molla Nəsrəddin" jurnalındakı nümunələri xalq pedaqogikası baxımından təhlilə cəlb etməyə təşəbbüs ilk dəfə bizim tərəfimizdən göstərilmişdir.

XX əsrin əvvəllərində ictimai həyatda baş verən hadisələrlə əlaqədar olaraq xalq pedaqogikası, ana dili, milli dil, xalq dili, deyimlər və duyumlar, atalar sözləri, tapmacalar, nağıllar, inanclar məsələləri ilə sıx bağlı idi. Azərbaycan xalq pedaqogikası ana dilinin, sadə xalq dilinin əsas mənbəyi hesab edilirdi. Bu dövrdə ana dilindən söhbət düşəndə xalqımızın qabaqcıl baxışlı maarifçiləri ilk növbədə xalq dili məsələsini irəli sürürdülər. Bunu yazıçı və maarif xadimlərimizin həm bədii əsərlərində, həm məqalələrində, həm şeir yaradıcılığında çox aydın görürük. "Molla Nəsrəddin"in xalq pedaqogikasına, demək olar ki, hər nömrəsində müraciəti, C.Məmmədquluzadənin "Anamın kitabı", "Kamança" pyeslərində folklor nümunələri xalqın dünyagörüşü, dilinin ifadə forması kimi təqdim etməsi, Ü.Hacıbəyovun xalq ədəbiyyatı, xalq musiqisi əsasında əsərlər yazması, Şərqdə ilk opera yaratması, uşaq yazıçılarımızın xalq pedaqogikasından məharətlə istifadə etməsi, F.Köçərli, M.S.Ordubadi, Ə.Haqverdiyev və başqalarının bir sıra məqalə və məktublarında xalq yaradıcılığı nümunələrini yad təsirlərdən qorumaq məsələsi çox ciddi şəkildə qoyulurdu. Bu dövrdə xalq pedaqogikası nümunələri, qarşıya çıxan mühüm çətinliklərə baxmayaraq, mollanəsrəddinçilər tərəfindən daha çox, daha tez-tez çap olunurdu. Xalq pedaqogikası həm mətbuat səhifələrində, həm də ayrı-ayrı kitab və kitabçalar şəklində nəşr edilirdi. "Dəbistan" (1906-1907), "İrşad" (1906-1909), "Tərəqqi" (1907-1910), "Molla Nəsrəddin" (1906-1931), "Məktəb" (1911-1918) jurnallarının səhifələrində xalq pedaqogikası nümunələrinə geniş yer verilirdi.

"Molla Nəsrəddin" jurnalı, demək olar ki, hər nömrəsində atalar sözü, məsəl, tapmaca, bayatı, sayaçı sözləri, mahnılar çap edir, bütün

bunları çox ustalıqla dövrün mühüm ictimai-siyasi məsələləri ilə uyğunlaşdırmışdır. Onun yolunu davam etdirən "Kəlniyyət", "Arı", xüsusilə "Tuti" xalq pedaqogikasından yaradıcı surətdə bəhrələnirdi[1]. "Məktəb" ən çox atalar sözü, məsəl, aforizm və lətifələr çap eləmişdi"[2]. Satirik jurnallar xalq pedaqogikasından satira və yumor, uşaq jurnalları isə tərbiyəvi məqsədlər üçün istifadə etmişdir.

"Molla Nəsrəddin" jurnalı atalar sözlərini təhrif edərək satira və yumor dilində yazırdı:

Qonşun pisdir vur öldür.
Xandan qorxan qoyun saxlamaz.
Qurddan yaxşı çoban olar.
Müsəlmanın əcəli gələndə xanın ağacına sürtüşər.
Kor müsəlmanın kor da nəlbəndi olar[3].

Və yaxud başqa bir nömrədə oxuyuruq:

Lalın dilini molla bilər.
Malını yaxşı saxla, mollanı oğru tutma.
Mal yeməzin malını molla yeyər.
Hər zadın təzəsi, amma təlim kitabının köhnəsi.
Yuxla divar kölgəsində, qoy yesin bitlər səni,
Keçmə hər bir körpüdən, gər qapsa da itlər səni.
Yetimə kişmiş verən çox olar, amma çörək verən olmaz[4].

"Molla Nəsrəddin" jurnalında bu kimi atalar sözlərindən xeyli sayda misallar, nümunələr göstərə bilərik.

1905-ci ilin oktyabrında çar hökuməti tərəfindən verilmiş manifestdən sonra Cəlil Məmmədquluzadənin dediyi kimi "mətbuat dünyasında xeyli bir nəfəs genliyi"[5] əmələ gəldi. Ana dilli mətbuat qol-qanad açmağa macal tapdı. Uşaq mətbuatı yaratmaq üçün də real imkan yaranmış oldu.

Uşaq mətbuatı yaratmaq və bu yolla uşaq ədəbiyyatı antologiyasının inkişafına təkan vermək Azərbaycanlı maarifçilərin çoxdankı arzusu idi. "Nübar", "Sovqat", "Çıraq", "Məktəb" və s. kimi uşaq mətbuatı orqanı yaratmaq barədə təşəbbüs qaldırılmış olsa da, milli ucqarlarda müstəmləkəçilik siyasəti yeridən çar hökuməti müxtəlif bəhanələrlə həmin təşəbbüslərin qarşısına sədd çəkmişdi.

---

1 Axundov N.F. Azərbaycan satira jurnalları, Bakı: 1968

2 Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, I-V kitablar, Bakı: 1961-1977

3 «Molla Nəsrəddin» jurnalı, 1906, №7

4 «Molla Nəsrəddin» jurnalı, 1906, №9

5 Məmmədquluzadə C. Əsərləri. Altı cilddə. III cild. Bakı: «Azərnəşr», 1984.

Azərbaycan tarixinə, Azərbaycan xalq pedaqogikası ənənələrinə əsaslanan "Molla Nəsrəddin" jurnalı bədii, ictimai fəlsəfi fikir və təfəkkür tarixinə uyğun tərbiyə məktəbi inşa etdilər. Hansı ki, bu məktəbi inşa edən mollanəsrəddinçilər böyük zəhmət sərf edərək yeni bir Molla Nəsrəddin, Azərbaycan məktəb və pedaqoji fikir tarixinin Molla Nəsrəddinini yaradıb şöhrətləndirmişlər.

"Kənd-kəsəkdə", el içində tez-tez olan mollanəsrəddinçilər bir qayda olaraq gördüklərini, şəxsən şahidi olduğu hadisələri qələmə almışlar.

Xalq arasında bədnəzər var və bu bir həqiqətdir. Əgər bədnəzər olmasa idi, xalq pedaqogikasında bununla bağlı bu qədər bağlı ayin də olmazdı. Çox qədim zamanlardan insanlar əski yandırıb onun qarasından istifadə etməklə və ya üzərlik bitkisindən bədnəzərdən qorunmaq üçün bir vasitə kimi istifadə ediblər və indi də edirlər. İnanclara görə, üzərlik bədnəzərin düşmənidir. Bunun faydalarında "Molla Nəsrəddin" jurnalında yarı ciddi, yarı satirik şəkildə oxuyuruq:

Yıxsan uşağı birdən – insandı pilik yandır!!
Burnu, dodağı şişsə – asandı pilik yandır!!
Sən tez əl ayağ, eylə – vur başına bismillah!
Dəymişsə, şəyatin, cin – dəff eyləyəcək Allah,
Sürt, alnına bir zərrə – yanmış qara sən Allah!!
Min təsrübədən çıxmış – qorxma a kişi billah
Doktor nədi göndərmə – böhtandı pilik yandır!!
Əski bürələ od vur – asandı pilik yandır!!

İnanclara əsasən insanın dünyaya açılan pəncərəsi gözdür və o, hər tip yaxşı və pis düşüncələrin ilk çıxış nöqtəsidir. Elm sübut etməsə də, amma araşdırmalar göstərir ki, bədnəzər var. Hətta nəzər yetirən insanlar da var. Nəzər insanın beyin gücündən ibarət olan mənfi enerjidir.

Azarlasa bax tiflin – vur başına bismillah!
Zəhmət çəkib hazır qıl – bir manqal içində köz.
Bir azcana un islat – beş on dana sal xöz göz
Torpaq çevir at qorxma – heç ağlama səbr et döz!
Naxoşluğu keçməzsə – asandı pilik yandır!!
Bax doktora göndərmə – böhtandı pilik yandır!!
Qalmış atalardan çox – bizlərdə bu cür adət
Tərk olsa, gedər əldən – qiymətli, gözəl nemət
Sən onlara zidd olma – olma bu qədər hüccət
Doxtorluq işi, dərman – bidətdi bütün bidət
Yoxsa uşağı, qorxsa – insandı pilik yandır!!

Əski bürülə, od vur – asandı pilik yandır!![1]

Cəlil Məmmədquluzadə bütün ciddiyyəti ilə yazır ki, Molla Nəsrəddin bir şəxsin barəsində yalan danışsa, dəxi Molla Nəsrəddindən binamus adam dünyada gərək tapılmaya!"; yaxud biraz zarafatla: "Mən Molla Nəsrəddinəm. Oxucularımdan təvəqqe edirəm ki, mənim şəklimə yaxşı baxsınlar. Mən deyirəm ki, yalan danışmaq nə mənim əbama və əsama yaraşır, nə başmaqlarıma və saqqalıma. Mən yalan danışmanam".

Xalq lətifələrində olduğu kimi, Azərbaycan Molla Nəsrəddinində də özünü bilərəkdən avam yerinə qoymaq, "qədim əsrin adamı", "orucağız", hətta paxıl, qərəzkar, xəbərçi kimi göstərmək xasiyyəti, daha doğrusu, yerinə, məqamına görə düşünüb daşınmaq, rəftar və hərəkət etmək xasiyyəti vardır.

XX əsrin ilk onilliklərində isə xalq pedaqogikası materialları uşaq şeirinin və felyetonunun ən aparıcı mövzularından birinə çevrilmiş, hətta bu yolla yeni uşaq əsərləri yaratma meyli dövrün ən istedadlı uşaq şairlərinin (və yaxud uşaq əsərləri də yazmaqla məşğul olan görkəmli sənətkarların) yaradıcılığında mühüm yer tutmuşdur.

C.Məmmədquluzadə "Təzə təlim kitabı" ["Molla Nəsrəddin", 1906, №10,12], "Kərbəlayı" ["Molla Nəsrəddin", 1909, №37], "Əvvəlinci söz" ["Molla Nəsrəddin", 1909, №38], "Bismilla Xiragima Nirragim" ["Molla Nəsrəddin", 1909, №46], "Nişanlı bir qız" ["Molla Nəsrəddin", 1910, №2], "Qanlı faciə" ["Molla Nəsrəddin", 1910, №27], "Cavanlara" ["Molla Nəsrəddin", 1921, №2], "Qız tərbiyəsi" ["Molla Nəsrəddin", 1921, №3], "Uşaqlarımız" ["Molla Nəsrəddin", 1924, №3], "Uşaq teatrı" ["Molla Nəsrəddin", 1925, №5] və b. felyetonlarında köhnə məktəbin, köhnə dərs kitablarının, köhnə dərs üsulunun və ümumiyyətlə köhnə tərbiyənin bütün nöqsanlarını açır, ifşa edir. Müxtəlif pedaqoji üsullardan istifadə edən ədib "Təzə təlim kitabı" felyetonunda ailədə, məktəbdə, hökumət idarələrində hökm sürən cəhalət, nadanlıq, avamlıq, ədalətsizlik kimi mənfi halları "hesab məsələləri" şəklində əks etdirir:

1. Bir külfətdə dörd nəfər uşaq var və hər bir uşağın ayrıca anası. Ev sahibinin neçə arvadı var?
2. Molla dərs verdiyi kitabın 42 səhifəsi var, hər səhifəni uşaq iki ay oxuyur. Nə müddətdə uşaq həmin kitabı qurtara bilər?
3. Molla bir uşağın ayağını falaqqaya qoyanda on bir çubuq sındırır. Yeddi uşağa nə qədər çubuq gərək hazır edə?

1 «Molla Nəsrəddin» jurnalı, 1923, №28

4. Bir kişi evinə üç dənə alma gətirdi, birini verdi oğluna, birini qızına və birini də özü yedi. Arvada neçə alma yetişdi?

5. Müsəlman uşağı dörd il rus dərsi oxuyub evinə qayıdanda anası ilə rusca danışır. Bu hesabla cavan on dörd il oxuyandan sonra nə dildə danışacaq? və s.[1]

Qeyd etmək lazımdır ki, bu sualların hər birinin cavabında valideynlərin maarifləndirilməsi və uşaqların yeni ruhda təlim-tərbiyəsi ilə bağlı çox ciddi pedaqoji ideyalar durur.

Bir qisim xalq pedaqogikası nümunələrində ifadə olunan əxlaqi və ictimai ideyalar dövrün uşaqlarının tərbiyəsi baxımından da tam məqbul görünmüş, bu tipli nümunələri sənətkarlar ya heç bir dəyişiklik etmədən, ya da çox cüzi dəyişikliklə nəzmə çəkmişlər. M.Ə.Sabir "Ə.Sabir Tahirzadə" imzası ilə "Məktəb şagirdlərinə töhfə" ["Səda" qəzeti, 25 fevral 1910, №46], yenə "Ə.Sabir Tahirzadə" imzası ilə "Təbib ilə xəstə" ["Həqiqət" qəzeti, 18 iyun 1910, №138], "Ə.S." imzası ilə "Molla Nəsrəddinin yorğanı" ["Günəş" qəzeti, 23 noyabr 1910, №75], "Ə.S." imzası ilə "Molla Nəsrəddin və oğru" ["Günəş" qəzeti, 2 yanvar 1911, №1], yenə də "Ə.S." imzası ilə "Yalançı çoban" ["Yeni həqiqət" qəzeti, 11 fevral 1911, №18] mənzum hekayələrini bu yolla yaranmış uğurlu əsərlər hesab etmək olar. M.Ə.Sabir bu mənzum hekayələri məlum xalq lətifələrini, rəvayətlərini, məsəlləri və bu kimi digər xalq pedaqogikası nümunələrini nəzmə çəkmək yolu ilə yaratmışdır.

Xalqımızın deyim və duyumlarını, nağıllarını, xalq mahnılarının unudulmaması və ya başqa xalqlar tərəfindən (əsasən də üzdəniraq ermənilər tərəfindən) özününküləşdirilməsi F.Köçərlini, Y.V.Çəmənzəminlini narahat etdiyi kimi, Üzeyir Hacıbəyovun da həyəcan təbili çalmasına gətirib çıxarmışdır. Pedaqoq yazır ki, "… Azərbaycan xalqının bir çox el nəğmələri və rəqsləri aradan çıxaraq, get-gedə əhali arasında intişar tapmayıb, axırda əksikir. Onların yerinə yeni-yeni şeirlər gəlir. Hərgah biz istəsək bir neçə il bundan qabaq Azərbaycanda oxunan mahnılardan xəbərdar olaq, ola bilər ki, onları xatırlamaya bilək. Buna səbəb musiqi əsərlərini toplamamağımızdır"[2].

Ü.Hacıbəyov yazır ki, "erməni Anton Mailyan "Şah İsmayıl" operasından "Haydı qızlar", "Ay yoldaşlar" nəğməsini "notaya alaraq, öz musiqisi hesab edir… El musiqi əsərlərinin təlif olunmasında, özgələr tərəfindən mənimsənilməsində həpsinin səbəbi el nəğmələrinin

---

1 «Molla Nəsrəddin» jurnalı, 1906, №,№10,12

2 Hacıbəyov Ü. Ə. Seçilmiş əsərləri. Bakı: «Yazıçı», 1985, səh.183

toplanmaması, notaya salınmaması və nəğmə məcmuələri şəklində həmişəlik saxlanmamasıdır. Əgər el nəğmələri notaya salınaraq toplansa və saxlansa, əlbəttə, heç kəs onu özünə çıxa bilməz. Nəğmələr itib batmaz, tez unudulub məhv olmaz”[1].

Ü.Hacıbəyov xalq pedaqogikasına kor-koranə aludəçiliyin əleyhinə idi. O, şifahi xalq yaradıcılığı nümunələrinə tənqidi münasibəti sənətkar üçün vacib sayır, “el mahnılarını seçməyi”, “bugünkü günlə səsləşməyən sözlərdən qaçmağı” tələb edirdi.

Xalq pedaqogikasının ümumi əhəmiyyətini yüksək qiymətləndirən Ü.Hacıbəyov onun ayrı-ayrı növləri və janrları haqqında da qiymətli fikirlər söyləmişdir. Bunlardan el mahnıları və havaları haqqında pedaqoqun elmi-nəzəri fikirləri daha geniş yer tutur. El mahnıları, bayatılar Üzeyir Hacıbəyovun “Zəmanəmizə layiq musiqi əsərləri yaradaq”, “Musiqidə xəlqilik”, “Opera və dramın tərbiyəvi əhəmiyyəti haqqında”, “Aşıq sənəti”, “Azərbaycan musiqi tərəqqisi” və s. məqalələrində bir neçə cəhətdən təhlil və şərh olunmuşdur. Adlarını qeyd etdiyimiz məqalələrdə bayatı və el mahnılarının təsir gücünün dəqiq şərhini vermişdir. Pedaqoq yazır ki, el mahnıları Azərbaycan xalqının əhval-ruhiyyəsinin şərh, zövq musiqisini bəyan, şeir və musiqidəki yaradıcılıq qabiliyyətinin dərəcəsini təyin edə bilən böyük bir material olduğundan, onun istər musiqi, istər ədəbi, istər psixoloji, istər etnoqrafik əhəmiyyəti çox böyükdür.

Beləliklə, mollanəsrəddinçilər gənc nəslin tərbiyəsi, əxlaqı məsələlərinə həmişə ictimai və mədəni inkişaf baxımından yanaşmışlar. Onlar bu mövzuda yazdığı şeir, hekayə, məqalə, felyeton, Azərbaycan xalq pedaqogikası nümunələrində köhnə, çürük təlim-tərbiyə üsullarını tənqid etmiş, uşaqların, gənc nəslin mütərəqqi üsullar əsasında tərbiyələndirilməsinə çalışmışlar. Uşaqları vətənə və xalqın adət və ənənələrinə və ya milli dəyərlərə məhəbbət ruhunda böyütmək, onlara mədəni vərdişlər, müsbət əxlaq normaları aşılamaq mollanəsrəddinçilərin ən böyük, nəcib arzularından biri olmuşdur və bu da tədqiq-təhlil üçün aktuallıq kəsb etməkdədir.

Dissertasiyasının **“Molla Nəsrəddin” jurnalının və mollanəsrəddinçilərin tərbiyə haqqında görüşləri**” adlanan III fəslində ***“Molla Nəsrəddin” jurnalında mənəvi ədalətsizliyin təsviri”, “Mollanəsrəddinçilərin mənəvi-əxlaqi kamilliyə və insani davranışa çağırışı, əxlaqi keyfiyyətlərin təbliği” və “Mollanəsrəddinçi maarifçilərin yaradıcılığın-***

1 Hacıbəyov Ü. Ə. Seçilmiş əsərləri. Bakı: «Yazıçı», 1985, səh.184

***da xalqa, vətənə, ailəyə və əməyə münasibət tərbiyəsi"*** kimi yarımfəsillər yeni elmi-aktual nəzəriyyələr prizmasından araşdırılmış və təhlilə cəlb olunmasına çalışılmışdır.

***"Molla Nəsrəddin" jurnalında mənəvi ədalətsizliyin təsviri*** yarımfəslində təsdiqlənir ki, "Molla Nəsrəddin" jurnalının və eləcə də mollanəsrəddinçilərin tərbiyəvi fikirləri və görüşləri Azərbaycan məktəb və pedaqoji fikir tariximizi zənginləşdirən ən dəyərli pedaqoji örnəklər hesab olunur. Bu mənada jurnalın səhifələrindəki tərbiyəvi fikirləri, mollanəsrəddinçilərin isə pedaqoji görüşlərini daha ətraflı tədqiq etməyi məqsədəmüvafiq hesab elədik. Ona görə də ilk növbədə mollanəsrəddinçilərin pedaqoji ideyalarının əsas istiqamətlərini düzgün müəyyənlişdirmək lazım gəlir.

1905-ci ilə qədərki pedaqogika tarixində mənəviyyatsız dövlət məmurlarının, saxta din xadimlərinin tənqidinə imkan və şərait yox idi. Camaatı "bəli, bəli" deməyə öyrədən qanun və ehkamlar ancaq gücə, sərvətə, mənsəbə tabe idi. Hər hansı etiraz, açıq fikir boğulurdu. Kükrəyən, səbri tükənməkdə olan xalqın aydınları öz fikir və hisslərini ifadə etmək üçün imkan və forma axtarırdılar. "Çox çəkmədi ki, gözüaçıq, iti qələmli realist yazıçılar bu formanı tapdılar, öz qəzəb və nifrətlərini satira ilə ifadə etdilər. Bu satira yeni məzmunlu və çox mənalı, təsirli idi. Gülüşün hədəfi son dərəcə çirkin və rəzil simalı adamlar olduğundan, onlara gülən ədiblər isə mənəvi cəhətdən çox yüksəkdə durduqlarından satira daha təbii, daha təsirli çıxırdı"[1].

Mollanəsrəddinçiliyin əsas məqsədlərindən biri də imperiya siyasətini, Şimali və Cənubi Azərbaycanın malına, mülkinə sahib çıxmaq istəyən xaricilərin məqsədlərini ifşa etmək idi. Jurnal Azərbaycanı öz təsir dairəsinə salmaq istəyən bəzi yad qüvvələrə qarşı mollanəsrəddinsayağı mübarizə aparırdı. 1911-ci ilin yanvarında ABŞ dövlət departamenti İranda amerikan imperializminin müstəmləkəçilik siyasətini həyata keçirmək üçün Tehrana beş nəfər "müşahidəçi" göndərmişdi. Bunlara Morqan Şüster başçılıq edirdi. Yerli hakimlərin satqınlığı nəticəsində ölkənin iqtisadi həyatında, maliyyə və başqa sahələrində ağalıq etməyə başlayan Şüster gizli polis, casuslar, jandarmlar vasitəsilə İran və Cənubi Azərbaycanda olmazın fitnəkarlıq törədirdi. Bu vəziyyət qabaqcıl adamların hədsiz hiddətinə səbəb olmuşdu. Möcüz amerikan imperializminin fitnəkarlığına qarşı nifrətini ortaya qoyaraq ("Məsnəvi", "Miskin qoyun" və s.), Şüsteri və onu vəkil edən ağaları dönə-dönə ifşa edirdi.

---

1 Mir Cəlal. «Azərbaycanda ədəbi məktəblər». Bakı: «Ziya-Nurlan», 2004, səh.51-52

Satiralarında şair İrana soxulmuş çoxlu xaricinin burada tam özbaşınalıq etdiyini görərək yazmışdı:

Zən etmə div birdi... bu diyardə,
Minlərcə div xəlq edib ağayi-Şüstəri.

M.Ə.Möcüz "biaman cəllad" adlandırdığı ingilis müstəmləkəçilərinə öz həmvətənlərinin nifrətini ifadə etmişdir.

Aman ingilis işindən, aman!
Yeridir su altından hər gün saman.

Yaxud:

Söylər hər kəs kuçəvü bazardə:
"İngilis barmağı var bu kardə"[1]

– deyən Möcüz "saman altından su yeridən" alman, ingilis müstəmləkəçilərinin xalqı mənəvi əsarətdə saxlamaq kimi iyrənc niyyətlərini, fitnəkarlıqlarını ifşa edir.

Mollanəsrəddinçilər xalq hərəkatına rəğbət bəsləyir, onun daha da genişlənməsinə təkan verirdilər. Təbii ki, bu hərəkatdan da yalançı mollalar, axundlar, fəhlənin əməyini acımadan mənimsəyən iş adamları narahat olurdu. Fəhlələrin, kəndlilərin öz haqlarını tələb etməsi üsyanını heç bir şəkildə qəbul edə bilmirdilər. Mollanəsrəddinçi Mirzə Cabbar Əsgərzadə "Məhkəmə pişiyi" imzası ilə "Molla Nəsrəddin" jurnalında on misradan ibarət olan "Çıxdı əldən" adlı satirasında aşağıdakı şəkildə təsvir yaradır

...Cəm idi hər vəqt yanımda müridanim mənim,
Əskinas ilə dolurdu boş cibişdanım mənim,
Höccət idi xalqa hər bir qövli-böhtanım mənim,
Uf, acındım, yandım, allah, getdi dövranım mənim!
Ədlimə yoxdur bazarda qol qoyan heyvanımız.

Yarımfəsilə yekun vuraraq deməliyik ki, "Molla Nəsrəddin" jurnalının, eləcə də mollanəsrəddinçilərin ictimai-siyasi mübarizəsi xalqın maariflənməsinin əsasını təşkil etmişdir.

III fəslin ***"Mollanəsrəddinçilərin mənəvi-əxlaqi kamilliyə və insani davranışa çağırışı, əxlaqi keyfiyyətlərin təbliği"*** adlı ikinci yarımfəslində təhlillər öz təsdiqini tapmışdır. Pedaqoji ədəbiyyatlarda yazılır ki, əxlaq, insanın özü ilə, insanlarla və ümumilikdə bütün canlı aləmlə münasibət və davranışlarını ehtiva edən dəyərlər bütünü, hər hansı bir cəmiyyətdə gözlənilməli qaydalar, həyata keçirilməli iş və vəzifələr, bir sözlə, cəmiyyət üçün yararlı bütün davranışlardır. Burada ən ümdə əxlaqi dəyərin bir

1 Möcüz M. Əsərləri. Bakı: «Yazıçı», 1982, səh.274

insanın başqa birinə hörmətlə yanaşması olduğu vurğulanmalıdır. Buna görə əxlaq insanın başqalarının fikir və düşüncələrini nəzərə alıb hörmətlə yanaşması, öz hərəkətlərinə diqqət yetirməsi və digərləri ilə sağlam münasibət qurmasıdır. Bu mənada qadına humanist münasibət məsələsi də mollanəsrəddinçi maarifçiləri maraqlandıran problemlərdən olmuşdur. Əlbəttə, bu məsələ haqqında ayrıca yazılmasa da tədqiqatçı alimlərimiz yeri gəldikcə, bu və ya digər sənətkarın konkret əsərindən danışarkən, qadına münasibətdən də söhbət açmışlar. Diqqət etdikdə, şairlərdə qadına münasibət əsasən aşağıdakı məsələlər ətrafında cəmləşir: Qadın cəmiyyətin tam hüquqlu üzvü kimi ağlı, dərrakəsi, idrakı ilə kişilərlə bərabərdir və bəzi məsələlərdə bəlkə də onlardan daha tədbirli, daha cürətlidirlər. Cəmiyyətin özəyini təşkil edən ailənin əsasında qarşılıqlı məhəbbət əsas olmalıdır. Qadına ailə qurmaq kimi ciddi məsələdə sevib-sevilmək hüququ verilməlidir. Qadını alçaldan, onun ləyaqətini tapdalayan, cəmiyyəti əxlaqsızlığa yuvarlayan iki və çoxarvadlılığın kökü kəsilməlidir. Avam və tərbiyəsiz qadınlar da öz növbəsində cəmiyyətin əxlaqını pozan insanlar kimi tənqid hədəfinə çevrilirlər.

Qadının hüququ məsələsi ən çox dinlə bağlı uydurulan bir məsələ idi. Həmin həqiqəti Cəlil Məmmədquluzadə Mirzə Fətəli Axundovun ölümünün 50 illiyi münasibətilə “Mirzə Fətəli Axundov və qadın məsələsi” adlı məqaləsində çox gözəl ifadə edərək yazırdı: “Qadın ləfzi islam aləmində indiyədək bir “od” olubdur ki, ona əl vurmaq, barıta əl vurmaq kimi xətalı hesab olunubdur. İslamın şəriəti, necə ki, məlumdur, qadını kişilərə naməhrəm tutubdur və bu qanunu pozmaq günahi-kəbirə (böyük günah – K.C.) qəbilindən sayılıbdır. Mürur ilə məsələ daha da bərkiyibdir, ta o yerə kimi ki, qadın sözünü ağıza alıb danışmaq bilmərrə qədəğən olunubdur... Bir müsəlman bəndəsinin istilahında onun arvadının adı yoxdur: arvadının adı “bizim ev adamımız”dır. Bir müsəlman kişisi öz yavıq, ya bəlkə öz qardaşının yanında arvadının adını çəkmək məcburiyyətində olanda “Cəfərin anası”, “Əhmədin anası” adlandırıbdır. Bu qanunu pozanlar müsəlman içində “yoldan azmış”, “biqeyrət” adı ilə şöhrət tapmışlar və həmin “qeyrət” üstə müsəlman qardaşlar o qədər “qeyrət” göstəriblər ki, bir-birinin qanını içməyə hazır olublar və içiblər də... Onun üçün də cahil islam şairləri dünyanın cəmi bədbəxtliklərini qadınların üstünə yıxıblar: “Viran şüdən mülki-Süleyman əz zən”[1].

Əlbəttə, Cəlil Məmmədquluzadənin söylədiklərində onun öz satirik ruhuna uyğun şişirtmələr olsa da həqiqət acı, mənzərə kədərlidir. Əbdürrə-

---

1 «Şərq qadını» jurnalı. 1928, №3

himbəy Haqverdiyev Mirzə Fətəli Axundovun qorxmadan, çəkinmədən qadın hüquqlarından söhbət açmasının bir səbəbini də "çiyinlərindəki parıldayan epoletlərdən ibarət möhkəm arxası" olmasında görürdü[1]. Cahil islam şairlərinin cəmiyyətdə kişinin öz əli ilə törənən bütün bəlaları qadının üstünə yıxmaları isə mütəfəkkir yazıçını fikrə saldığı kimi, yaxın qələm sahibi olan əməkdaşlarının da yaraları qaysaq bağlamırdı.

Qadına münasibət məsələlərinə nəzər salanda görürük ki, qadının səadəti doğmaqdan asılı idi. Belə ki, hərgah oğlan doğdu, evdə hamının istəklisidir, qız doğdusa, hamı ona düşməndir. Mollanəsrəddinçilər dönələrlə vurğulayırlar ki, qadına qarşı münasibətlər qaydaya düşərsə, cəmiyyətdə baş verən bir sıra pozğunluqların qarşısını almaq mümkün olar. C.Məmmədquluzadə "Qız uşağı" adlı felyetonunda qadınlara olan münasibəti belə təsvir edir: "Mənim bir xalam var idi: gəlini oğlan doğanda qırxı çıxana kimi hər gün gəlinə quymaq bişirərdi, amma qız doğanda yavan çörəkdən savayı bir şey verməzdi yesin. Bu hamıya məlumdur ki, birinin oğlu olanda xəbər gətirib muştuluq alırlar, amma qızı olanda evdə hamı yas saxlayır"[2].

Azərbaycan realistləri qadın hüququ uğrunda mübarizəni belə çətin bir şəraitdə aparırdılar. C.Məmmədquluzadə "müsəlman övrətlərinin göz yaşını dəryalar"la müqayisə etdiyi, M.Ə.Sabir "bədbəxt Tükəzbanlar"ın halına acıyaraq alovlu şeirlər yaratdığı zaman Əli Nəzmi də onların səsinə səs verirdi. O, Azərbaycan qadınlarının ağır, işgəncə ilə dolu həyatından təsirli əsərlər yazırdı. Ə.Nəzmi qadını insan hesab etməyən ailə despotlarına, çoxarvadlılara gülür, arvadı ancaq alaq çəkmək, əppək yapmaq, saqqala rəng yaxmaq, yırtıq-yamaq sağlamaq, duz əzmək, oğlan doğmaq, başmaqları cütləmək, nehrə çalxalamaq, kefi istədiyi zaman döymək üçün alan köhnə fikirliləri belə təsvir edir:

Sən kişisən vermə yol – haqqını anlasın qadın!
Nəhs, toyuq kimi açıb – ağzını banlasın qadın.
Bir balaca danışdımı – ağzına vur, söy arvadı
Ya işinə qarışdımı – olma riza döy arvadı
Çünki yaratdı bir kəniz – anla, sənə "göy" arvadı
Bir tikə ixtiyarı yox – erkəyi danlasın qadın.
Sən kişisən vermə yol – haqqını anlasın qadın![3].

Göründüyü kimi, bu qeyri-əxlaqi ideyalara qarşı mübarizə mollanəsrəddinçilərin həyat amalı idi. Onlar çıxış etdikləri hər bir qəzet və jur-

---

1 Haqverdiyev Ə. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı: «Lider», 2005, səh.366

2 «Molla Nəsrəddin» jurnalı, 1907, №25

3 «Molla Nəsrəddin» jurnalı, 1928, №14

nallarda xalqı cəhalətdən, köhnəlikdən yaxa qurtarmaq üçün elmə, maarifə, məktəbə çağırır, qızların oxumasını vacib sayırdı. “Camaat, biz musurman tayfası çox bədbəxt olmuşuq. İndiyə kimi həmişə başımızdan ayaqlıyıblar. Gərək bundan sonra belə olmayaq! Gözünüzü açın, dost-düşməninizi tanıyın! Nə vaxta kimi əzilə-əzilə gedəcəksiniz? Bircə siz də insan olduğunuzu qanın! Bəyin, yasavulun, xanın, mollanın ayağının altında nə vaxta kimi qalacaqsınız? Nə vaxta kimi avam olub, siz qazanıb onlar yeyəcəklər? Uşaqlarınızı oxumağa qoyun! Elmə, sənətə çalışın!..”[1]. Qadınların savadsız olmaları Azərbaycanın görkəmli maarifpərvərlərini dərindən düşündürürdü. Onlar maarif və mədəniyyətin tərəqqisində, xalqımızın inkişaf etməsində qadınların böyük rol oynamalarını öz əsərlərində dəfələrlə göstərmişlər.

Yan Amos Komenski yazır ki, “Qoy heç kəs apostol sözləri ilə etiraz etməsin ki, “Qadını öyrətməyə Allah icazə vermir...”. Qadının təhsil almasını məsləhət görməkdə məqsədimiz onda boş bilik həvəsi yaratmaq deyil, onu... xoşbəxt etməkdir, o həm öz evdarlıq həyatını ləyaqətlə qura bilsin, həm də özünün, ərinin, uşaqlarının və ailənin qayğısına qala bilsin...”[2]. Bu mənada mollanəsrəddinçilər də qadının-qızların təhsil almasını vacib bilir və göstərirdi ki, gələcək cəmiyyətin taleyi onların öz uşaqlarına verdiyi tərbiyədən çox asılıdır. O, qızların ailədə feodal-patriarxal münasibətlər əsasında tərbiyəsinə qarşı məktəb tərbiyəsini, sağlam ailə tərbiyəsini qoyur, oğlanlar kimi qızların da yeni məktəblərdə oxumasını tələb edirdi.

Tədqiqatçı sonda qeyd edir ki, mollanəsrəddinçilərin mənəvi-əxlaqi kamilliyə və insani davranışa çağırışı, əxlaqi keyfiyyətlərin təbliği, qadına olan münasibət məsələlərini ən müasir mənada ictimai hüquq bərabərliyi mövqeyindən təhlil və təsvir etmiş, ictimai həyat haqqındakı fikirləri Azərbaycan və ümumən Şərqdə yeni bir cığır salmışdır.

Dissertasiyanın III fəslinin üçüncü yarımfəsli ***“Mollanəsrəddinçi maarifçilərin yaradıcılığında xalqa, vətənə, ailəyə, təbiətə və əməyə münasibət”*** məsələləri ilə tamamlanır. Mollanəsrəddinçilər və “Molla Nəsrəddin” jurnalı əsil insan, əsil vətəndaş, humanist, vətənpərvər, adam tərbiyə etməyi arzu edirdilər. Onlar göstərirdilər ki, tərbiyə nümunəsi insanların düzgün yaşamalarına, ətraf mühiti yaxşı öyrənmələrinə, ətrafdakı hadisələrdən baş çıxarmasına kömək etməlidir. Düzgün tərbiyə gənclərdə fəallıq, doğruçuluq, təvazökarlıq, xalqın azadlığını, Vətənin toxunulmazlı-

1 «Molla Nəsrəddin» jurnalı, 1909, №32

2 Komenski Y.A. Böyük didaktika (Elmi redaktoru, nəşrə hazırlayanı və ön sözün müəllifi Əməkdar elm xadimi F.Rüstəmov). Bakı: «Elm və təhsil», 2012, səh.72

ğını, şərəf və şöhrətini qorumaq kimi əxlaqi sifətlər aşılamalıdır. "Molla Nəsrəddin" jurnalı burjua cəmiyyətində gedən sinfi mübarizəni çox gözəl dərk etmişdi, bir tərəfdən eyş-işrətdə, kefdə, şənliklərdə günlərini keçirən varlılar, digər tərəfdə isə çörək tapmayan kənd və şəhər yoxsullarının acınacaqlı həyat sürmələrini görürdü. Buradan da nəticə çıxararaq mollanəsrəddinçilər qeyd edir ki, bu siniflərin özlərinə məxsus əxlaqi görüşləri vardır. Ona görə də varlılar uşaqlarını öz əxlaqi görüşləri əsasında tərbiyə edirdilər. M.Ə.Sabir yazırdı ki, uşaqların doğrucul olmaları üçün hər şeydən əvvəl valideynin özü doğrucul olmalıdır, bu sahədə ata-ana uşağa yaxşı nümunə olmalıdır. Bu cəhətdən "Molla Nəsrəddin" jurnalında dərc olunmuş "Doğru" şeiri çox xarakterikdir.

Doğru deyən olsaydı yalançı usanardı,
Avarə qalanlar dəxi bir söz də qanardı.
Münsif həqə həq, batilə batil söyləsəydi,
Əlbəttə ki, nahəq söyləyən şəxs utanardı![1].

Paklığı, saflığı, həqiqəti, gerçəkliyi müdafiə edən mollanəsrəddinçilər doğruçuluğa, düzlüyə və humanizmə aid bir sıra nəsr əsərləri, şeir və felyetonlar nəşr etdirmişlər. "Doğru" ["Molla Nəsrəddin" jurnalı, 1908, №16], "Uşaq və pul" ["Yeni Füyuzat" jurnalı, 1910, №6], "Artistlər" ["Molla Nəsrəddin" jurnalı, 1912, №9], "Uşaqlarımız" ["Yeni yol", 1923, №4-5], "Üsuli-tərbiyə" ["Molla Nəsrəddin" jurnalı, 1925, №21], "İki alma" və sair kimi əsərləri bu qəbildən hesab etmək olar. Hakim siniflərin pula olan hərisliyi, pul düşkünlüyü, var-dövlətə hərislik də mollanəsrəddinçilərin tənqid obyektindən kənarda qala bilməzdi.

"Molla Nəsrəddin" jurnalında oxuyuruq: burjua cəmiyyəti pul, xüsusi mülkiyyət üzərində qurulmuşdur. Burada ədalət, namus, qeyrət, vicdan, şərəf, şəxsi ləyaqət və sair əxlaqi keyfiyyətlərin hamısı dövlət üzərində qurulur. Burjua cəmiyyətində gedən hadisələri dərindən dərk edən "Molla Nəsrəddin" jurnalı qeyd edirdi ki, burjuaziyanı yalnız öz həyatı maraqlandırır, xalqın, millətin var-yoxdan çıxması, millətin hörmətdən düşməsi, hüququnun tapdalanması, səsinin eşidilməməsinin[2] onlara heç bir dəxli yoxdur, təki onun həyatı yaxşı keçsin.

Cəlil Məmmədquluzadə "Cırcırama" imzası ilə pul hərisi olan acgöz varlıların adından kinayəli şəkildə yazırdı: "Ax, pul, canım pul, gözüm pul. Sənsiz dünya bir qəpiyə dəyməz! Ax pul, canım pul, bir şey yoxdur

1 "Molla Nəsrəddin" jurnalı, 1908, №16

2 «Molla Nəsrəddin» jurnalı, 1908, №15, 1909, №43

ki, sənə bərabər olsun və heç bir çətin iş yoxdur ki, sən ilə aşmasın. Ax pul, sənsən abadanları xarab eləyən, xarabaları abadanlığa çevirən"[1].

İki gözlərimdi pulum,
Kişi, bir məgər qanırsan?,
Onu vermək olmur axır
Hər olan-qalanə, yarəb[2].

"Molla Nəsrəddin" jurnalı yazırdı ki, bəzi ata-analar öz qızlarını pula satırlar, gözəlliklə alver edirlər. Qızını pula qurban edən bir ananın öz qızı ilə olan söhbətini təsvir edərək jurnal yazırdı: "...nə qədər yalvardım elə dedi ki, mən ona getmərəm". "Axı, nə səbəbə getmək istəmirsən" - dedim. Dedi: gözləri çəpdir... qız, cəhənnəm, gözləri çəpdir, pulu var, pulu. Pulsuz adamın indi qiyməti yoxdur, hər nə olursan ol, ancaq pulun olsun"[3].

"Molla Nəsrəddin" jurnalının müvafiq nömrələrində "Bakı pəhləvanlarına" ["Molla Nəsrəddin", 1906, №28], "Qazancımız" ["Molla Nəsrəddin", 1907, №1], "İntilgentlər" ["Molla Nəsrəddin", 1907, №15], "Ac" ["Molla Nəsrəddin", 1907, №29], "Şərab içmək" ["Molla Nəsrəddin", 1910, №13], "Keflənmək" ["Molla Nəsrəddin", 1911, №39], "Şikayət" ["Molla Nəsrəddin", 1913, №5], "Tiryək" ["Molla Nəsrəddin", 1913, №9], "Pyatqorski" ["Molla Nəsrəddin", 1914, №5], "Məşrübat" ["Molla Nəsrəddin", 1921, №7], "Cavanlara" ["Molla Nəsrəddin", 1921, №29] və s. kimi mövzularda çap olunan materiallarda qumarbazların, tiryək çəkənlərin, sərxoşların acınacaqlı vəziyyəti təsvir edilir və onlar şiddətli satira atəşinə tutulurlar.

Tərbiyənin roluna yüksək qiymət verən Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" imzası ilə yazır ki, bizim gələcək inkişafımız, uşaqların yaxşı tərbiyə olunmasından çox asılıdır. "Hər bir millət üçün nicat yolu tapmaq balaca uşaqları məktəbə göndərib tərbiyə vermək ilə əmələ gəlir. Əgər belə olmasa, heç bir şey fayda bağışlamaz"[4].

"Molla Nəsrəddin" jurnalı oğurluq və rüşvətxorluğu insan əxlaqının ən alçaq forması hesab edirdi. Jurnal rüşvətxorluğu feodal burjua əxlaqının çirkin sifəti kimi insanı alçaldan, onun şəxsiyyətini qiymətsiz vəziyyətə salan bir əxlaqı hərəkət kimi pisləyirdi. "Molla Nəsrəddin" jurnalı xüsusən Təbrizdə olan zaman İran hökmdarlarının bu çirkin əxlaqi sifətlərini jurnal vasitəsi ilə xalqın nəzərinə çatdırırdı. Jurnal din nümayəndələrini tənqid

1 «Molla Nəsrəddin» jurnalı, 1908, №7

2 «Molla Nəsrəddin» jurnalı, 1907, №14

3 «Molla Nəsrəddin» jurnalı, 1908, №7

4 «Molla Nəsrəddin» jurnalı, 1906, №21

edərək yazırdı ki, siz gecə gündüz minbərdən uca səslə xalqa deyirsiniz ki, rüşvət haramdır, Allah taala bunu qadağan edibdir, yoxsullar da buna inanır və sizin sözünüzü allahın buyruğu kimi qəbul edir, lakin özünüz xalqın gözü qarşısında rüşvətxorluqla məşğul olursunuz.

Rüşvət haramdır dedin aldın, utanmadan
Vəz etdiyin inandı, sən amma inanmadın[1].

Yalançı din xadimlərinin rüşvətxorluğunu tənqid edən jurnal onların danışdıqları yalanlara da öz münasibətini bildirir. Yalanın, oğurluğun üstünü dini ehkamlarla ört-basdır etmək istəyən din xadimlərinin iç üzünü açan jurnal bu xüsusda da bir sıra yazılarla çıxış edirdi.

M.Ə.Sabirin əsərlərində ən çox təəssüf hisslərinə rast gəlirik ki, bu da övladlarının tərbiyəsi ilə az maraqlanan, onların tərbiyəsi və təlimi ilə məşğul olmayan və ümumiyyətlə, tərbiyə üçün məsuliyyət hiss etməyən ata-analardır.

Övlad tərbiyəsinə məsuliyyətsizcəsinə münasibət bəsləməyin bir forması uşaqları ərköyün böyütməkdir. Bu eybəcər tərbiyənin əsas səbəbi ata-ananın öz uşağına hər hansı bir həddi aşan sevgisidir. Uşağı sevmək yaxşı şeydir və bu uşağın inkişafı üçün də vacibdir. Lakin sevgi həddi aşanda əks nəticə verir və uşağın tərbiyəsini pozur. A.S.Makarenkonun sözləri ilə desək, uşağa olan sevgi dərman kimi müəyyən norma tələb edir, nə az, nə də çox olmalıdır. Qızdırmanı kəsmək üçün dərmanı yarım qram əvəzinə on qram qəbul edəndə insanı zəhərlər. Eləcə də uşağı həddən artıq əzizləyib onun hər istəyini yerinə yetirdikdə belə sevgi onu korlayır.

"M.Ə.Sabir valideynlərdən öz uşaqlarına qarşı son dərəcə diqqətli olmağı, uşağı nəzarətsiz buraxmamağı, ədəbsizlik etməyə qoymamağı, qeyd edildiyi kimi ərköyünlüyə öyrətməməyi zəruri sayırdı. Sabir valideynlərin özlərinin tərbiyəyə zəruri ehtiyacı olduğunu qeyd edir. Şair qeyd edir ki, uşaqların tərbiyəsi işində qüsura yol verən, pedaqoji biliyə ciddi ehtiyac hiss edən ailələr az deyildir. Belə ki, bir çox ailələrdə tərbiyədə vahidlik prinsipi gözlənilmir. Təbii ki, bu tələblərdə vahidlik gözlənilmirsə, uşağı düzgün tərbiyə etmək olmaz"[2].

Budur, ata oğlunu biədəb söyüşlərinə görə tənbeh edəndə, ana uşağı müdafiəyə qalxaraq deyir:

Ay başı daşdı kişi, dinmə, uşaqdır uşağım!
Nə ədəb vaxtıdı, qoy söysün, ufaqdır uşağım!
Ax, nə yaxşı kişidir qonşumuz Ağcanın əri, -

1 «Molla Nəsrəddin» jurnalı, 1906, №21

2 Camalov K.H. Valideyn-övlad münasibəti məsələləri Şərq mütəfəkkirlərinin gözü ilə. Bakı: «Elm və təhsil», 2010, səh.25

Oğlu söydükcə fərəhdən açılır balü pəri;
Yoxsa, ay hərzə kişi, bir quru sözdən ötəri
Darıxırsan, deməyirsən ki, uşaqdır uşağım
Nə ədəb vaxtıdı, qoy söysün, ufaqdır uşağım!

Göründüyü kimi, ana deyir ki, qonşuluqda yaşayan "Ağcanın ərini" oğlu söydükcə atanın fərəhdən qəlbi böyüyür, sən isə oğlunun bir söyüşü ilə ona acıqlanırsan.

Kişi, az söylə mənə bir dəxi məktəb sözünü!
Yəni məktəblə uşaq kamil edərmiş özünü?
Bir söyüşdən yana az danla bu tiflin üzünü!
Sözü ləzzətli, şirin dilli uşaqdır uşağım!
Nə ədəb vaxtıdı, qoy söysün, ufaqdır uşağım![1].

Yaş xüsusiyyətlərini nəzərə almaqla uşaqların əxlaqının saflaşdırılmasını xatırladan bu satirik şeirdə söyüş söyən övladını müdafiə edən və beləliklə onun əxlaqını pozan ana şeirdə məzəmmət olunur. Bu məzəmmət isə bir növ tərbiyə meyarı kimi təqdim olunur.

M.Ə.Sabir qeyd edir ki, valideyn, ilk növbədə, tərbiyənin məqsədini aydın təsəvvür etməlidir. O, göstərirdi ki, bir çox ailələr bu məsələyə tam etinasızlıqla yanaşırlar: valideynlər və uşaqlar sadəcə bir yerdə yaşadıqlarından valideynlər ümid edirlər ki, hər şey öz-özünə qaydaya düşəcəkdir. Belə valideynlərin nə aydın məqsədi, nə də müəyyən proqramı olur. Sabirin fikrincə, hər bir ata və ana öz uşaqlarında nə kimi sifətlər tərbiyə etmək istədiyini yaxşı bilməlidir. Valideyn öz arzularının nədən ibarət olduğunu aydın təsəvvür etməlidir.

Mollanəsrəddinçilər əxlaq tərbiyəsinin mühüm komponenti kimi vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirmişlər. Onlar "xalqının səadətindən və vətəninin azadlığından başqa dünyanın bütün gözəlliklərini, nemətlərini və zövqlərini heçə sayan qeyrətli vətəndaşla, xaricilərin çəkməsini yalamağı ömrünün "mənası" hesab edən "daxili düşmən" arasında gedən məfkurəvi çarpışmanı"[2] xüsusi bir həssaslıq və ardıcıllıqla izləmişlər.

Azərbaycan xalqı tarix boyu heç bir zaman öz doğma vətəninə, zəngin və bol məhsul verən münbit torpağına, dünyada şöhrət tapmış mədəni sərvətlərinə, onun mənafeyinə laqeyd olmamışdır. Vətənə məhəbbət, vətənə bağlılıq, onu yadelli işğalçılardan qoruyub müdafiə etmək, vətənin həqiqi azadlığı və istiqlaliyyəti uğrunda mübarizə aparmaq,

1 Sabir M.Ə. Hophopnamə. İki cilddə. I cild, Bakı: «Şərq-Qərb», 2004, səh.185

2 Əlioğlu M.Ə. Məslək qardaşları. Bakı: «Azərnəşr», 1966, səh.60

gəncləri vətənpərvərlik ruhunda tərbiyə etmək Azərbaycan xalqının ən böyük məqsədi olmuşdur.

Vətənpərvərliklə bağlı jurnal səhifələrində çoxlu şeir, felyeton, məqalə, şəkil və s. vardır. "Azərbaycan", "Tüstü", "Filosoflar", "Axund ilə keşişin vəzi", "Marallarım", "Səidə oxşar", "İrs", "Arzu", "Uçitellər" felyetonları, "Məktub", "İranlılara" və bir sıra başqa şeirlər vətənpərvər məzmunlu şeirlərdir. "Molla Nəsrəddin" jurnalı və mollanəsrəddinçilər vətənpərvərlik hissini gənc nəslin tərbiyəsində ən mühüm məsələ hesab edirdilər.

"Azərbaycan" felyetonunun "Ah unudulmuş vətən, ay yazıq vətən!" sözləri ilə başlayan Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalında öz vətəninə bütün varlığı ilə bağlı olmasını açıq surətdə sübut edir. C.Məmmədquluzadənin vətən haqqında yürütdüyü ideyaları, onun Azərbaycan xalqını və vətənini göz bəbəyi kimi sevməsinin bir timsalıdır. Cəlil Məmmədquluzadə "Azərbaycan" felyetonunda yazır ki, "hər bir xalq öz doğma vətənini sevməli və onun xoşbəxtliyi üçün var qüvvəsi ilə çalışmalıdır"[1].

Mollanəsrəddinçilər Cənubi Azərbaycanda yaşayan türklərin nümunəsində Şərq xalqlarının cəhalət zəncirini qırmağa, onları vahid bir qüvvə ilə birləşməyə və birləşərək yadelliləri ölkədən çıxarmağa və daxilindəki istismar dünyasını dağıtmağa çalışırdı. Əzilən xalqın ah-naləsini görən Cəlil Məmmədquluzadə həqiqi vətən dostlarını köməyə çağırırdı. Bu nöqteyi-nəzərdən onun "Tüstü" felyetonu da çox xarakterikdir.

Felyetonda oxuyuruq: "Vətən əldən gedir, onun dilsiz-ağızsız, köməksiz bisavad adamları uşaq və gəncləri ətrafı bürüyən zəhərli tüstüdən boğulur, cəhalət, nadanlıq, savadsızlıq, mədəniyyətsizlik tüstüsü xalqı boğur, ona görə dünyanın həqiqi, namuslu, ədalətli adamları xalqın tüstüdən boğulmasının qarşısını almalıdır, buna görə çarə tapmalıdır, kömək etməlidir. Vətənimiz düşmən ayağı altında tapdalanır, onun əməksevər adamlarının milli qüruru təhqir edilib alçaldılır, vətənin əldən getməsinin qorxusu vardır. İnsan dünyaya ancaq yeyib içmək üçün gəlməmişdir, o, öz işilə vətənin, millətinin inkişafına kömək etməlidir"[2].

Mollanəsrəddinçilərin tənqid atəşinə tutduğu nöqsanları düzəltməyə çalışması, onun vətənpərvərliyindən irəli gəlirdi. Onun tənqidi, şiddətli satirası, uzaq görənliyi, gələcəyə inamı, xalqını sevməsi onun vətənpərvərliyinin qırılmaz hissəsidir.

1 «Molla Nəsrəddin» jurnalı, 1917, №24

2 «Molla Nəsrəddin» jurnalı, 1921, №7

Bəşəriyyət tarixində əmək və əmək tərbiyəsi ilə bağlı kifayət qədər yazılmış, onun əxlaqa və mənəviyyata təsir imkanları öyrənilmişdir. Müxtəlif cəmiyyətlərdə əməyə olan münasibət də müxtəlif olmuşdur. İstismarçı siniflər həmişə deyirdilər ki, fiziki əməkdə işləmək yoxsullara məxsusdur, onlar əməkdə işləmək üçün doğulmuşlar, onların vəzifələri işləyib ağalarını saxlamaqdadır. Belə mürtəce ideyalarla yanaşı tarixdə əməyə qarşı mütərəqqi ideyalı şəxslər də yaranmışdır. Onlar əməyin insan həyatındakı roluna böyük qiymət vermişlər.

Bu sahədə pedaqogika klassiklərindən ingilis utopik pedaqoqu Tomas Mor (1478-1534), italiyalı humanist pedaqoq T.Kompanella (1568-1639), Con Belleres (1654-1725), fransız maarifçi J.J.Russo (1712-1778), isveçrəli pedaqoq H.Pestalossi (1746-1827) və b. görkəmli maarifçi pedaqoqlar həmişə əməyə və onun roluna yüksək qiymət vermişlər. Böyük çex pedaqoqu Yan Amos Komenski (1592-1670) yazırdı: "Hər şeyi təcrübə yolu ilə mənimsətmək lazım gəldiyindən (öz yerində bunu gördüyümüz kimi), əməyi (zəhməti) də əmək vasitəsi ilə öyrənmək lazımdır; daimi (lakin həddini keçməyən) zehni və fiziki məşğələlər əməksevərliyə keçsin və heç kəs avaralığa dözməsin. O zaman Senekanın dediyi – "nəcib ağıllar əməklə cilalanır" – ifadəsi özünü doğruldar[1].

Mollanəsrəddinçilər qeyd edirlər ki, müsəlman Şərqinin əksəriyyətinin xüsusiyyəti ondan ibarətdir ki, hər bir məsələnin həllini dövlətlilərə tapşırmışlar, zəhmətkeşlər öz taleyini imtiyazlı siniflərə həvalə etmişlər. Onlar özləri öz yaradıcılıqlarına inanmamışlar. Bu xüsusiyyət Şərq istibdadının bir nəticəsi olmuşsa da müsəlman fanatizminin nəticəsi olmuşdur: "alnına nə yazılıbsa elə də olacaqdır", "qismətdən artıq yemək olmaz", "olacağa çarə yoxdur" və s. kimi dini məzmun daşıyan sözlər zəhmətkeş insanları cəsarətli işdən, faydalı əməkdən uzaqlaşdırırdı. Cəlil Məmmədquluzadə bu münasibətlə "Mikroblar" felyetonunda yazır. Heç bir faydalı əməkdə işləməyən adamlar sadə insanların əməyindən istifadə edib varlanırlar, onların hesabına dolanırlar. Məhz bu mikrobları məhv etmək lazımdır. Hər bir namuslu və öz əməyi ilə çalışan şəxs özünü və xalqını azad etmək istəyirsə, xalqın qanını soran "mikrob"larla mübarizə etməli, onları birdəfəlik yox etməlidir.

Salman Mümtaz "Molla Nəsrəddin" jurnalında tənbəllik, cəmiyyət üçün heç bir faydalı əməkdə iştirak etməmək, başqasının hesabına yaşamaq və s. kimi əxlaqi sifətləri pisləyir. S.Mümtaz "Xortdan bəy"

1 Komenski Y.A. Böyük didaktika (Elmi redaktoru, nəşrə hazırlayanı və ön sözün müəllifi Əməkdar elm xadimi F.Rüstəmov). Bakı: «Elm və təhsil», 2012, səh.206

imzası ilə yazır ki, hakim siniflərin uşaqları nəinki tənbəldirlər, onlar əməkdən tamamilə uzaqlaşmışlar, onlar israfçıdırlar. Onlar maddi nemətlərin istehsalında iştirak etmədikləri üçün onu istədikləri kimi də sərf edirlər. Onlar məzlumları vəhşicəsinə soyub taladıqları pulları sağa-sola xərcləyirlər. Qumarda, eyş-işrətdə, məclislərdə hədsiz dərəcədə pul xərcləyirlər. Beləliklə gənclər atalarının toplamış olduqları pulları xərcləyir və nəticədə də atadan qalmış sərvət qurtarır və gənclərin də əlindən bir iş gəlmir, sıradan çıxırlar. Bunun səbəbi əməyə xor baxmaqdan, ondan uzaqlaşmaqdan, özgəsinin hesabına yaşamaqdan və s. ibarətdir.

Tarac edirəm millətimi, kef mənimdir
Möhtac edirəm millətimi, kef mənimdir
Puç eyləyirəm sərvətimi, kef mənimdir
Həp boşlayıram qeyrətimi, kef mənimdir
Borcum ki, sənə yoxdu, kişi, bəs nə deyirsən?
Bu saheyi-dünyanı mənə təng eləyirsən?[1].

Cəlil Məmmədquluzadə “Mıncıq” felyetonu vasitəsilə zəhmətkeş xalqı oyadır, “eşidin”, “fikirləşin”, “düşünün” deyir. Bəsdir öz zəhmətinizlə qazandığınız halal malınızı dövlətlilərə verdiniz[2].

“Molla Nəsrəddin” jurnalında bədii zövqü inkişaf etdirmək, uşaq və gəncləri tərbiyə etmək üçün teatr tamaşalarının oynanılmasına yüksək əhəmiyyət verilirdi. Cəlil Məmmədquluzadə “Teatr və musiqa” adlı felyetonunda yazır ki, “...Camaatın qabağa gəlməsi üçün teatr məclisləri ən faydalı bir şeydir. Belə olan surətdə teatr məclislərinin intişar tapmağını lazım və vacib bilmək lazımdır. Həmin bu məqsədə çatmaq üçün millətlər hər bir şəhərdə və hətta kəndə teatr cəmiyyətləri bina edirlər və bu yolda çox pullar qoyub və teatrxanalar təsis edib işlərinin günü-gündən tərəqqisinə çalışırlar”[3].

“Molla Nəsrəddin” jurnalının nəşri müddətində elə bir nömrəsi olmamışdır ki, orada bu və başqa formada ailə tərbiyəsinin nöqsanlı cəhətləri tənqid edilməsin və onların aradan qaldırılması üçün faydalı məsləhətlər verilməsin. Ailə tərbiyəsi ilə bağlı “Ata nəsihəti” [“Molla Nəsrəddin”, 1906, №21], “Həyatın gopgopuna cavab” [“Molla Nəsrəddin”, 1906, №23], “Uşaqlara” [“Molla Nəsrəddin”, 1906, №32], “Olmur-olmasın” [“Molla Nəsrəddin”, 1908, №12], “Məsləhət” [“Molla Nəsrəddin”, 1908, №14], “Bəxtəvər” [“Molla Nəsrəddin”, 1908, №19], “Üç arvad” [“Molla Nəsrəddin”, 1908, №21], “Ziyafət”, “Arzu” [“Molla Nəsrəddin”, 1909,

---

1 «Molla Nəsrəddin» jurnalı, 1911, №1

2 «Molla Nəsrəddin» jurnalı, 1906, №32

3 «Molla Nəsrəddin» jurnalı, 1906, №28

№3], "Zina" ["Molla Nəsrəddin", 1911, №25], "Oğlum" ["Molla Nəsrəddin", 1914, №1], "Nuxadan", "Nənə və qızların cavabı", "Ata-oğul" ["Molla Nəsrəddin", 1914, №10] yazıları xüsusilə xarakterikdir.

Mollanəsrəddinçilər ailə tərbiyəsinin düzgün qurulmasında təhsilin, elmin, məktəbin roluna böyük qiymət verirdilər. Onların fikrincə savad həm uşağa və həm də ona tərbiyə verən valideynə, xüsusən kiçik yaşlı analara lazımdır. Bu barədə jurnal çoxlu felyeton, hekayə, məqalə və yazılar vermişdir.

Uşağın tərbiyə edilməsində ər ilə arvad arasında vahid söz və əməl birliyi yoxdur. "Ailədə uşaqlara qayğı və nəvaziş göstərilməklə yanaşı onlara müxtəlif vahid tələblər verilir"[1]. Bu birliyin olmaması uşağın tərbiyəsinə mənfi təsir göstərməyə bilməz. Ailə tərbiyəsində hökm sürən bu hərcmərclik mollanəsrəddinçiləri narahat edirdi, onlar belə ailələrə ürəkdən acıyırdı.

"Molla Nəsrəddin" jurnalında və başqa qəzet və jurnallarda çap olunan "ol günkü sənə xaliq edər lütfi bir övlad, olsun ürəyin şad" misrası ilə başlanan şeir köhnə müsəlman ailəsinin avamlığını, öz doğma övladına əmlaka baxan kimi baxmasını tənqid edir. "Oğlum", "Ata nəsihəti" ["Molla Nəsrəddin", 1906, №21], "Anam-bacım" ["Molla Nəsrəddin", 1908, №20], "Ax, bu uşaqlar necə bəzzatdılar!" ["Molla Nəsrəddin", 1908, №21], "Qoyma gəldi" ["Molla Nəsrəddin", 1908, №33], "Bu əməkdən ucalarsan", "Uşaqdır" ["Molla Nəsrəddin", 1908, №34], Nədir olur bu cocuqlar əyan bu boyda, bu boyda?" ["Molla Nəsrəddin", 1908, №40], "Vah!.. bu imiş dərsi-üsuli-cədid?!" ["Molla Nəsrəddin", 1909, №20], "Oğul mənimdir əgər, oxutmuram, əl çəkin!" ["Molla Nəsrəddin", 1910, №15], "Oğlunun vasiteyi-xilqəti olmaqla fəqət" ["Həqiqət" qəzeti, 1910, №159] "Qız tərbiyəsi" ["Molla Nəsrəddin", 1921, №3] və s. şeir və felyetonlarda köhnə ailə, köhnə həyat tərzi, övlada olan qeyri-insani münasibət bütün parlaqlığı ilə özünü göstərir. Bu kimi ailə tərbiyəsi ilə bağlı materialları oxuyub təhlil edəndə adamın qarşısında cahil, nadan olduğu qədər də amansız olan kərbəlayilər, hacı və məşədilər, "xan bacılar", "sənəm xalalar", "həpəndlər", "küpə girən qarılar"ın iyrənc simaları canlanır. Çoxdan ölüb getmiş iyrənc aləmin olmasına belə insan inana bilmir. Lakin bu olmuş bir həqiqətdir. Mollanəsrəddinçiləri düşündürən də bu idi, bu köhnəlikdən xilas olmaq. Belə köhnəlikdə yaşayan, ömür sürən uşaqlar bədbəxt və talesiz idi. Ona görə də tərbiyə ailədən, ana qucağından doğru və düzgün istiqamətdə aparılmalıdır. Tərbiyə ancaq düzgün aparıl-

---

1 Abbasov A.N. Pedaqogika. Bakı: «Mütərcim», 2010, səh.249

dığı zaman uşaqları avam ailələrin təsirindən, köhnə fikirli ata-anaların əlindən qurtarmaq olar.

Yekun olaraq bildirilir ki, mollanəsrəddinçilərin "yaradıcılığı bütün dövrlər üzrə yeni nəsillər üçün müstəqillik, azərbaycançılıq, millilik və vətəndaşlıq tərbiyəsi məktəbidir"[1]. Onların yeni, sağlam, gözüaçıq, mədəni insanlar yetişdirmək işinə mane olan əngəlləri ailədən tutmuş dini ocaqlara qədər bir-bir göstərmiş, bu əngəlləri törədən səbəbləri açıb demiş və eləcə də tərbiyə işinə böyük xalq və vətən işi kimi baxmışlar. Çünki hər işin başlanğıcı tərbiyədən asılıdır. Xalqın ən böyük ümidi olan gənc nəsli tərbiyə etməkdir. Vətənin gələcəyi, onun inkişafı, dövlət, ədəbiyyat və elm xadimlərinin böyük ideyaları gənc nəslin tərbiyəsindən asılıdır. Bu gerçək həqiqəti müdafiə və bəyan edən mollanəsrəddinçilər ailə-övlad tərbiyəsi, yetişən nəslin təhsili, təlimi, onların əxlaqının saflaşdırılması, mənəvi keyfiyyətlərinin yetkinləşdirilməsi, halal əməyə alışdırılması, qeyrətli-namuslu vətəndaşlar kimi yetişdirilməsi ilə bağlı yazıları ilə Azərbaycan məktəb və pedaqoji fikir tarixinin zənginləşdirilməsi sahəsində misilsiz xidmətlər göstərmişlər.

Dissertasiyanın **nəticə** hissəsində alınan elmi nəticələr qiymətləndirilmiş, dissertasiyanın strukturundan çıxış edilərək hər bir fəslin daxilindəki yarımfəsillərin təhlilindən alınmış elmi qənaətlər, üzə çıxan elmi-nəzəri əsaslar, aktuallıq kəsb edən elmi ideyalar, perspektivlər və **təkliflər** aşağıdakı kimi şərh olunmuşdur:

➢ Mollanəsrəddinçi maarifçilər Azərbaycan məktəb və pedaqoji fikrinin inkişafı tarixində qabaqcıl bir maarifçi, elm, mədəniyyət carçısı və mütərəqqi fikirli ictimai xadim kimi tanınmış görkəmli simalardan olmuşlar. Onlar ərəb, fars, rus, fransız dillərini mükəmməl bildiklərindən dünya ədəbiyyatına, elmi-pedaqoji fikrinə bələd olmuş və ondan bəhrələnmişlər. Maarif, məktəb, təlim-tərbiyə məsələlərində qabaqcıl nəzəriyyə və təcrübəyə əsaslanmaqla, başqalarının mədəniyyətini kor-koranə təqlid etməyin heç vaxt tərəfdarı olmamışlar. Mollanəsrəddinçilər bütün fəaliyyəti boyu Azərbaycan mədəniyyəti tarixini öyrənmiş, onun Nizami, Füzuli, Axundov, Zərdabi, Seyid Əzim Şirvani kimi görkəmli nümayəndələrinin irsinə ehtiramla yanaşmış, onlardan öyrənmiş, Yan Amos Komenski, Conn Lokk, Tolstoy, Pestalossi, Uşinski, Makarenko, Qoqol kimi nəhəng simaların ideyalarından qidalanmışlar.

➢ Mollanəsrəddinçilərin və mollanəsrəddinçi dostların dünyagörüşü

1 Məmmədquluzadə C. Seçilmiş əsərləri. İki cilddə. I cild (Tərtib edəni və ön sözün müəllifi akademik İ.Həbibbəyli). Naxçıvan: «Əcəmi», 2009, səh.3

mollaxanalarda, mədrəsələrdə, yeni üsullu məktəblərdə və Gürcüstan (C.Məmmədquluzadə, M.Qarayev, Ü.Hacıbəyov), İran (M.Ə.Möcüz), Türkiyə (Ö.F. Nemanzadə), Rusiya (Ə.Haqverdiyev), Aşqabad (Salman Mümtaz) kimi ruhani və ali məktəblərdə təhsil aldığı ilk günlərdən inkişaf edib formalaşmağa başlamışdır.

- Şərq və Qərb pedaqoji fikir tarixində möhtəşəm yer tutan mollanəsrəddinçilər həm də yüksək pedaqoji məharətə malik bir müəllim, mədəniyyət tariximizdə qabaqcıl bir maarifçi, elm, mədəniyyət carçısı və mütərəqqi fikirli ictimai xadimlər kimi tanınmış, görkəmli simalardan biri olmuşlar.
- Onların dünyagörüşünün formalaşmasına həm antik, həm Şərq (Əl Fərabi, İbn Sina, C.Rumi, Bəhmənyar əl-Azərbaycani Ö.Xəyyam, Sokrat, Platon, Aristotel), həm də mütərəqqi rus və Avropa ictimai-siyasi fikri güclü təsir etmişdir. Görkəmli maarifçi pedaqoqların dünyagörüşündə inkişaf və tərəqqi ideyası mühüm yer tutmuşdur. Onların xalqı elmə, maarifə çağırışı təbii ki, demokratik maarifçi dünyagörüşünə malik olmasından irəli gəlmişdir.
- Mollanəsrəddinçilərin diqqət mərkəzində dayanan cəhətlərdən biri də qonşu ölkələrin, ilk növbədə Yaxın və Orta Şərq xalqlarının, Rusiyanın mütərəqqi məktəb və pedaqoji fikri ilə bağlı görüşləri olmuşdur. Azərbaycanın Rusiya tərəfindən işğal edilməsi nəticə etibarı ilə çarizmin məxfi məqsədlərindən asılı olmayaraq Azərbaycan Rusiya və Avropanın mütərəqqi ictimai-iqtisadi, elmi-pedaqoji və mədəni inkişaf məcrasına düşdü. Bütün bunlardan yararlanan mollanəsrəddinçilər dünyəvi qabaqcıl pedaqoji ideyaları Azərbaycan məktəb və pedaqoji fikir tarixinə gətirirdilər.
- Mollanəsrəddinçilərin pedaqoji irsində təlim məsələləri – təlimin əsas vasitələri, prinsipləri, metodları mühüm yer tutur. Onlar təlimi vahid bir proses kimi götürürdülər.
- Mollanəsrəddinçilər türkdilli xalqların ortaq mədəniyyəti, təlim-tərbiyə və təhsili, həmçinin zəngin pedaqoji ideyalarının tədqiqi, təbliği və tətbiqi sahəsində ilkin addımlar atmışlar.
- Mollanəsrəddinçilərin pedaqoji irsində təhsil məsələləri mühüm yer tutmuşdur. Onlar, ümumi, icbari və pulsuz dünyəvi təhsil ideyasının tərəfdarı olmuş, köhnə məktəblərdəki sxolastik tədris metodlarını tənqid etmişlər.
- C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, Mirzə Məhəmməd Hatif (Axundov), Məmməd Qarayev (Qazaxlı) və b.

Azərbaycanın kənd və şəhərlərində dünyəvi məktəblərin böyük şəbəkəsini yaratmışlar.

➢ Mollanəsrəddinçilər XX əsrin əvvəllərində Azərbaycanda genişlənən təlimin ana dilində aparılması ideyasının tərəfdarı olmuş, onun ictimai-siyasi və pedaqoji əhəmiyyətini şərh etmişlər. Dərsliklərin anlaşıqlı, sadə və aydın ana dilində, elmi və pedaqoji əsaslara uyğun yazılmasını tələb edirdilər. Onlar Azərbaycan dilini mükəmməl bilmədən xarici dilləri öyrənməyi məsləhət bilmirdilər.

➢ Mollanəsrəddinçilərin pedaqoji irsində və maarifçi görüşlərində müəllim, ona verilən tələblər və hazırlığı məsələləri geniş yer tutmuşdur.

➢ Mollanəsrəddinçilərin müəllim kadrlarının hazırlanması, onların Rusiya və Avropanın klassik pedaqoqlarının, ilk növbədə dünya pedaqoji elminin banisi Yan Amos Komenski, İohan Henrix Pestalossi, Rusiyada elmi-pedaqoji fikrin görkəmli nümayəndəsi olan Konstantin Dimitriyeviç Uşinski kimi mütəfəkkirlərin ideyaları ilə tanışlığı Azərbaycan elmi-pedaqoji fikrinin daha da canlanmasına səbəb oldu.

➢ Mollanəsrəddinçilər gənc nəslin əqli və əxlaqi inkişafında uşaq ədəbiyyatına xüsusi əhəmiyyət vermişlər. Onlar uşaq ədəbiyyatının yüksək ideallı, dərin məzmunlu olmasını, uşaqların hiss və həyəcanlarını, meyl və marağını əks etdirməsini, onun təxəyyül və fantaziyasına uyğun olmasını, sadə, aydın və səlis ana dilində yazılmasını tələb etmiş, bunun üçün uşaq psixologiyasını bilməyi vacib saymışlar.

➢ Əsrlərdən əsrlərə süzülərək gələn xalq pedaqogikası nümunələri – nağıllar, tapmacalar, bayatılar, xalq mahnıları, mövsüm-mərasim nəğmələri, aşıq şeirləri, dastanlar, xalq tamaşaları və s. mollanəsrəddinçilərin yaradıcılığında mənəvi keyfiyyətlərin formalaşmasının mühüm vasitələrindən biri olmuş, hələ təlim və tərbiyə haqqında elm olan pedaqogika yaranmazdan əvvəl gənc nəslin milli-mənəvi dəyərlər əsasında tərbiyə edilməsində müstəsna rolunu qeyd etmişlər.

➢ Mollanəsrəddinçilər qeyd edirlər ki, gənc nəslin təlim, tərbiyə və təhsili, elmi-pedaqoji fikrin inkişafı, şübhəsiz ki, xalqımızın milli-mənəvi dəyərlərindən, soy kökündən qidalanmışdır.

➢ Həmçinin, mollanəsrəddinçilər Azərbaycan təhsilinin Avropa və dünyanın qabaqcıl ölkələri ilə inteqrasiya olunması sahəsində uğurlu addımlar atmışlar.

➢ Mollanəsrəddinçilərin pedaqoji fikir və ideyalarında ailə tərbiyəsi məsələləri mühüm yer tutmuşdur. Onlar ailə və məktəbin birgə işini,

bunlar arasında vahid tələblərin gözlənilməsini, valideynin nümunəsini uşağın tərbiyəsində mühüm şərt saymışlar.

➢ Mollanəsrəddinçilər böyüyən nəslin tərbiyəsinin məzmunu, məqsədi, həyata keçirilmə imkanları ilə bağlı dəyərli fikirlər irəli sürmüşlər.

➢ Mollanəsrəddinçilər əmək tərbiyəsini əxlaq tərbiyəsi ilə əlaqədə götürmüş, əməyin tərbiyəedici xüsusiyyətini önə çəkmiş, böyüyən nəsildə əməyə və əməkçi insanlara məhəbbət tərbiyə etməyi, sənət öyrətməyi vacib bilmişlər.

➢ Bu gün mollanəsrəddinçilərin əsərləri təkcə Azərbaycanda ana dilində deyil, dünyanın bir sıra ölkələrində müxtəlif dillərdə (Türkiyə, Amerika, İngiltərə, Fransa, Hindistan, Çin, Finlandiya, İtaliya və s.) çap olunur.

Bir sıra **təklifləri** də irəli sürmək istərdik. Təklifimiz belədir:

- Mollanəsrəddinçilərin tərbiyəvi fikirləri ilə bağlı video çarxların hazırlanması yaxşı olar. Belə video çarxlar təlimin səmərəliliyini artırmaqla yanaşı təlimin tərbiyələndirici gücünü də artırmış olar;
- tərbiyənin tərkib hissələri, xüsusilə əxlaq tərbiyəsinin müvafiq komponentləri ilə bağlı mollanəsrəddinçilərin tərbiyəvi fikirləri, maarifçilik ideyaları əks olunan slaydların hazırlanması və təlim prosesində innovativ vasitələrin köməyi ilə tədris prosesinə gətirilməsi faydalı olardı.
- ümumtəhsil məktəblərinin Azərbaycan dili və ədəbiyyat dərsliklərində Əli Nəzminin, Mirzə Əli Möcüzün, Əli Razi Şəmsizadənin, Mirzə Məhəmməd Hatifin (Axundov), Mustafabəy Behbudovun, Kərimbəy İsmayılovun, Məşədi Həbib Zeynalovun, Mirzə Cabbar Əsgərzadənin, Əli Məhzun Rəhimovun, İsgəndər Qaffarinin, Məhəmməd Hacinskinin, Məmmədəli Manafzadə Sabitin və başqalarının əxlaq kodeksi daşıyan şeir, hekayə və ya əsərlərindən parça nümunələrinin verilməsi şagirdlərdə dünyagörüşünün formalaşmasının ancaq xeyrinə ola bilər.
- ümumtəhsil məktəblərində tədris olunan "Təsviri incəsənət" dərsliklərində mollanəsrəddinçi rəssamların (Oskar Şmerlinq, İosif Rotter, Beno, İsmayıl Axundov, Qəzənfər Xalıqov, Yusif Vəzir Çəmənzəminli, Seyidəli Behzad və b.) sənət əsərlərindən bəhs edilərsə, şagirdlərə karikatura sənətini sevdirməklə onların gələcəkdə yaradıcılıq yollarına işıq salmış olar.

Tədqiqatın başlıca müddəaları və nəticələri aşağıdakı **elmi əsərlərdə** əks olunmuşdur:

1. Firidunbəy Köçərli yaradıcılığında xalq pedaqogikasına məhəbbət // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, 2004, №14, s.46-47

2. Mirzə Ələkbər Sabir yaradıcılığında valideyn-övlad münasibəti mə-

sələləri // Pedaqoji Universitet Xəbərləri, 2005, №2, s.589-591

3. Ömər Faiq Nemanzadə ana dili haqqında // Naxçıvan Müəllimlər İnstitutu, Xəbərlər, 2006, №3, s.52-55

4. Mirzə Ələkbər Sabir ateist deyil deist şair olmuşdur // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, 2007, №2, s.90-93

5. Ömər Faiq Nemanzadənin maarifçilik ideyaları. Metodik vəsait. Bakı: ADPU, 2007, 36 s.

6. Maarif fədaisi Cəlil Məmmədquluzadə // Naxçıvan Müəllimlər İnstitutu, Xəbərlər, 2009, №3, s.52-55

7. Cəlil Məmmədquluzadənin pedaqoji ideyaları // Naxçıvan. İctimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnal, 2009, №21, s.118-125

8. Cəlil Məmmədquluzadənin pedaqoji fəaliyyəti və maarifçilik ideyaları // «Cəlil Məmmədquluzadə: taleyi və sənəti» kitabı, Bakı: Elm və təhsil, 2010, s.118-125

9. Mirzə Cəlil görkəmli tədqiqatçıların təhlilində // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, 2010, №1, s.167-169

10. «Molla Nəsrəddin» jurnalının ideal dostu və qayğıkeş ata Qurbanəli Şərifzadə // Naxçıvan Müəllimlər İnstitutu. Xəbərlər, 2010, №4, s.12-16

11. Sənət və sənətkar dostu Əliqulu Qəmküsar // Əliqulu Qəmküsar – Taleyi və sənəti, Bakı: Elm və təhsil, 2011, s.71-77

12. «Molla Nəsrəddin» jurnalında gender məsələlərinə müfəssəl baxış // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, 2011, №2, s.142-147

13. Mirzə Ələkbər Sabir və deizm / Respublika elmi-praktik konfransın materialları. Bakı: Müəllif, 2011, s.23-26

14. Mollanəsrəddinçi Məmməd Səid Ordubadinin tərbiyə və təhsil haqqında düşüncələri // Məmməd Səid Ordubadi: Taleyi və sənəti. Naxçıvan: Əcəmi, 2012, s.95-102

15. Mollanəsrəddinçilərin maarifçilik ideyalarında mənəvi tərbiyə məsələlərinə müfəssəl baxış // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, 2012, №2, s.118-122

16. Mollanəsrəddinçilər ana dili və təlimin ana dilində aparılması haqqında // Azərbaycan dili və ədəbiyyatı tədrisi, 2012, №3, s.16-23

17. Mollanəsrəddinçi Ömər Faiq Nemanzadə ana dili və onun tədrisi haqqında / Doktorantların və Gənc tədqiqatçıların XVI Respublika elmi konfransının materialları.Bakı, 2012, s.257-260

18. Təlim-tərbiyənin təkmilləşdirilməsi prosesində mollanəsrəddinçilər irsindən istifadə /«Ümumi orta təhsilin müasir problemləri» mövzusunda Beynəlxalq elmi konfransın materialları. Naxçıvan, 24 noyabr 2012-ci il, s.146-148

19. Yeni düşüncə və milli təfəkkürün inkişafında mollanəsrəddinçilərin və «Molla Nəsrəddin» jurnalının yeri və rolu / «Ümumi orta təhsilin müasir problemləri» mövzusunda Beynəlxalq elmi konfransın materialları. Naxçıvan, 24 noyabr 2012-ci il, s.146-148

20. Cəlil Məmmədquluzadə irsinə Heydər Əliyev məhəbbəti // Heydər Əliyev dövlətçilik təliminin işıqları. Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, 2013, s.88-90

21. Mollanəsrəddin jurnalında məktəbşünaslıq məsələləri / H.Əliyevin 90 illiyinə həsr olunmuş "Müasir təlim metodları və yeni pedaqoji texnologiyaların təlim-tərbiyə prosesində tətbiqi" mövzusunda respublika konfransı. 2013, s.68-70

22. Vətənin azadlığı uğrunda mübarizədə mollanəsrəddinçilərin rolu / "Regional inkişaf və böyük mədəniyyət: Mənşə, harmoniya və tipologiya məsələləri" mövzusunda Beynəlxalq konfransın materilları. Naxçıvan, 2013, s.92-93

23. Milli mətbuatın tərəqqisi uğrunda mübarizədə mollanəsrəddinçilərin rolu // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, 2013, s.70-74

24. Mövhumat əleyhinə mübarizədə mollanəsrəddinçilərin rolu / Heydər Əliyev 91, «Müasir təlim metodları və yeni pedaqoji texnologiyaların təlim-tərbiyə prosesində tətbiqi» mövzusuna həsr edilmiş elmi-praktik konfransın materialları. Naxçıvan: Məktəb, 2014, s.72-75

25. Mollanəsrəddinçilərdə milli qeyrətçilik və milli özünüdərk anlayışına nəzəri baxış / «Tədris prosesinin təkmilləşdirilməsi və müasir təhsil konsepsiyaları» mövzusunda Beynəlxalq elmi konfransın materialları. Naxçıvan, 2014, s.200-202

26. Böyük mütəfəkkirlərin maarifçilik ideyaları. Monoqrafiya. Naxçıvan: Əcəmi, 2015, 224 s.

27. Mollanəsrəddinçilərin maarifçilik ideyaları. Monoqrafiya. Bakı: Elm və təhsil, 2015, 356 s.

28. Mollanəsrəddinçilər əxlaqi keyfiyyətlərin təbliği haqqında // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, 2015, №5, s.190-197

29. Mollanəsrəddinçi pedaqoqların ictimai, ideya-siyasi görüşlərinə bir nəzər / "Azərbaycanda təhsil quruculuğunun prioritetləri: Müasir yanaşmalar" mövzusunda Beynəlxalq elmi konfransın materialları. Naxçıvan, 2015, s.342-344

30. Mənəvi-əxlaqi kamilliyə və insani davranışa çağırış, əxlaqi keyfiyyətlərin təbliği («Molla Nəsrəddin» jurnalı əsasında) // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2015, №3, s.56-60

31. Maarifçi eğitimçilərin sosyal düşüncə yapısına siyasi bakışlar // Kaf-

kaz Universiteti Sosyal Bilimler Enstitüsü Dergisi. Türkiye, 2015, s.41-49

32. Mollanəsrəddinçi maarifçilərin yaradıcılığında xalq pedaqogikasından istifadə metodları // Gəncə Dövlət Universiteti, Elmi əsərlər məcmuəsi, 2016, №2, s.275-278

33. Mollanəsrəddinçi maarifçilərin teatrların tərbiyəvi əhəmiyyəti haqqında görüşləri // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. 2016, №4, s.114-117

34. Mollanəsrəddinçilərdə vətənpərvərlik tərbiyəsinə nəzəri baxış // Naxçıvan Müəllimlər İnstitutu, Xəbərlər, 2016, №2, s.8-11

35. Mollanəsrəddinçilər düşündürərək öyrətməyin üsul və vasitələri haqqında / «Təhsil kurikulumları: praktik tətbiqlər» mövzusunda keçirilmiş Respublika konfransının materialları. Naxçıvan Müəllimlər İnstitutu, 2016, s.6-8

36. Ümummilli lider Heydər Əliyevin mollanəsrəddinçilər irsinə nəzəri baxışı / «Müasir təlim metodları və yeni pedaqoji texnologiyaların təlim-tərbiyə prosesində tətbiqi» mövzusuna həsr edilmiş elmi-praktik konfransın materialları. Naxçıvan Müəllimlər İnstitutu, 2016, s.15-17

37. Изображение уховной несправедливости в журнале «Молла Насреддин» // Историческая и социально-образовательная мысль. Том 8 №4/2, 2016, с.131-135

38. «Molla Nəsrəddin» jurnalının müxbir dostu Üzeyir Hacıbəyov / «Azərbaycanda təhsil siyasətinin prioritetləri: müasir yanaşmalar» Beynəlxalq elmi konfransın materialları. Naxçıvan, 2016, s.162-163

39. Mollanəsrəddinçilər və ailə – məktəb problemi. Dərs vəsaiti. Bakı: ADPU, 2017, 340 s.

40. Mollanəsrəddinçilərin dostu və əzizi Əziz Şərif // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, 2017, №1, s.12-16

41. Firidunbəy Köçərlinin «Molla Nəsrəddin» jurnalında fəaliyyəti və maarifçi görüşləri // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, 2017, №1, s.31-35

42. «Molla Nəsrəddin» jurnalından Mirzə Fətəli Axundovun maarifçi görüşlərinə bir nəzər // Azərbaycan Respublikasının Təhsil İnstitutu, Elmi Əsərlər, 2017, №4, s.251-255

43. Mollanasreddinçilerin milli basının gelişiminde rolü / IV Uluslararası Türk Dünyası Araşdırmaları Simpoziumu. Türkiyə, 26-28 aprel 2017-ci il, s.433-440

44. Mollanəsrəddinçilərin müəllim – müəllim hazırlığı haqqında görüşləri və pedaqoji fəaliyyətlərinə nəzəri baxış // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, 2017, №2, s.15-21

45. Azərbaycançılıq fəlsəfəsinin banisi Heydər Əliyev və mollanəsrəd-dinçilər irsinə nəzəri baxış / Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş «Təbiət və humanitar elm sahələrinin inkişaf problemləri» mövzusunda Respublika elmi konfransının materialları, Lənkəran Dövlət Universiteti, 2017, s.89-90
46. «Molla Nəsrəddin» jurnalında mövhumatçılığın təsviri və tənqidinə nəzəri baxış // Pedaqoji Universitet Xəbərləri, 2017, №4, s.107-115
47. Attitude to the nation, motherland and family in the activities of the Enlightener (on the basis of the magazine "Molla Nasreddin"). NINETEENTH CENTURY PROSE, ISSN: 1052-0406, UNITED STATES 2018, 48, Issue 2. pp.72-81

**Кямал Гасан оглу Джамалов**

# Место и значение журнала «Молла Насреддин» и движения молланасреддиновцев в истории развития азербайджанской школы и педагогической мысли

# РЕЗЮМЕ

Диссертация состоит из введения, трех глав, заключения, предложений и списка использованной литературы. Во «Введении» обосновывается актуальность темы, формулируются объект и предмет исследования, его цели и задачи, указываются научно-методологические основы, методы и источники исследования, описываются научная новизная, теоретико-практическая значимость работы, даются сведения о вносимых на защиту положениях и апробации диссертации.

I глава диссертации, называнная «Становление журнала «Молла Насреддин», его направления развития и просветительские воззрения молланасреддиновцев», состоит из двух параграфов. В первом параграфе отмечается, что просветители – молланасреддиновцы (Джалил Мамедкулизаде, Омар Фаиг Неманзаде, Мирза Алекпер Сабир, Абдульрагим бей Ахвердиев, Али Назми, Мамед Саид Ордубади, Алигулу Гямкюсар, Гурбанали Шарифзаде, Мирза Мухаммед Хатиф (Ахундов), Мирза Али Моджуз, Алаббас Музниб, Салман Мюмтаз, Узеир Гаджибеков, Али Рази Шемсизаде и др.) поставили перед собой цели уничтожить  старое мышление, колеса истории вывести на новый путь, очистить мир из всякой грязи, привнести в нашу планету новый взгляд, новое мышление, свободу и счастье. Во втором параграфе исследуются и анализируются характерные для мусульманской жизни вопросы экономики, быта, культуры, государственных дел, права, морали, медицины и т.п., занимающие просветителей просветителей – молланасреддиновцев молланасреддиновцев наряду с актуальными проблемами политической жизни.

II глава диссертации, состоящая из четырех параграфов, называется «Борьба молланасреддиновцев за демократизацию образования». В этой главе подчеркивается, что в журнале «Молла Насреддин» широко пропагандировалась идея о необходимости ведения обучения на родном языке в целях привития учащимся национального самосознания, проведения урока нравственного возрождения, пропаганды родного языка. Роль и деятельность молланасреддиновцев в борьбе за прогресс родного языка, их мысли о необходимости и значении преподавания родного языка проанализированы и обобщены в этой части диссертации. Здесь также оценена деятельность просветителей – молланасреддиновцев в развитии школы, театра и национальной печати, охарактеризованы общественно-культурные обстоятельст-

ва, обуславливающие создание печати на азербайджанском языке, обобщена роль журнала «Молла Насреддин» в развитии демократических, просветительских идей в Азербайджане, также его заслуги в развитии школы и просвещения, борьба просветителей с противниками в этой сфере, проанализированы их взгляды относительно значения, описания, становления и развития народной педагогики, нашедшие свое отражение в журнале. Вопросы воспитания детей в национальном духе, роль источников подобного воспитания и другие стали предметом изучения в конце настоящей главы.

Третья глава дисскртации посвящена «Воззрению журнала «Молла Насреддин» и молланасреддиновцев о воспитании». Она состоит из трех параграфов. Описание в журнале «Молла Насреддин» общественного и нравственного рабства, призыв молланасреддиновцев к нравственно-моральному совершенству и человеческому поведению, пропаганда моральных качеств в работе обоснованы аргументированно, мысли просветителей – молланасреддиновцев об отношении к народу, Родине, семье и труду, о вопросах его эффективной организации исследованы как актуальные с точки зрения современных педагогических требований вопросы. В главе подчеркивается, что вопросам семейного воспитания молланасреддиновцами уделялось особое внимание. Выдвинутые им мысли о совместной и согласованной работе семьи и школы в направлении воспитания ребенка, обязательном учете образца родителей, также о содержании, цели и возможности осуществления воспитания подрастающего поколения рассматриваются в этой части исследования. Здесь констатируется, что просветителями – молланасреддиновцами трудовое воспитание рассмотрено в тесной связи с моральным воспитанием, особо отмечены его воспитывающие свойства, неоднократно подчеркнута важность воспитания у детей любви к труду и трудовому народу, также обучения их какой-либо профессии.

В заключительной части диссертации обобщены результаты, полученные в ходе исследования, также сформулирован ряд предложений.

**Kamal Hasan oghlu Jamalov**

## The place and importance of Molla Nasreddin journal and the movement of Molla Nasraddin followers in the development history of Azerbaijan school and pedagogical thought

## SUMMARY

Dissertation consist of introduction, three chapters, conclusion, proposal and selected references. In the introduction actuality of the theme is grounded, object and subject of research, aims and objectives, scientific-methodological bases, research methods, sources of research scientific innovations attract attention, theoretical-practical importance of dissertation is stated, information about items presented to the defence of thesis and agrobase are given.

First chapter of the thesis is called "Formation, development directions of Molla Nasreddin journal and enlightenment thoughts of Molla Nasreddin followers". This chapter consists of two subchapters. In the first subchapter it is noted that, Molla Nasreddin followers (Jalil Mammadguluzadeh, Omar Faiq Nemanzadeh, Mirza Alakbar Sabir, Abdurrahim bey Hagverdiyev, Ali Nazmi, Mammad Said Ordubadi, Aligulu Gamkusar, Gurbanali Sharifzadeh, Mirza Mahammad Hatif (Akhundov), Mirza Ali Mojuz, Aliabbas Muznib, Salman Mumtaz, Uzeyir Hajibayov, Ali Razi Shamsizadeh and others) aimed to put an end to old thoughts, in general, to renew course of history, to make a better world, to bring new approach, new thought, freedom and good future to the world. But in the second subchapter in addition to actual issues of political life in Molla Nasreddin followers creativity, other important issues of muslim life as – economy, everyday life, culture, public services, juridical, moral, medicine and other problems were searched and analysed as well.

Second chapter of the thesis is called "The struggle of Molla Nasreddin followers for democratization of education" and consist of four subchapters. In the chapter the idea of applying national self – consciousness of nation, conducting teaching in mother tongue for moral rebirth, is popularized in "Molla Nasreddin journal, propaganda of mother tongue is started. The role and activity of Molla Nasreddin followers in the struggle for mother tongue progress, their opinions about importance and signifycance of mother tongue teaching were analysed and summarized. In addition the activity of Molla Nasreddin followers in the development of school, theatre and national press was appreciated, social-cultural condition determining formation of press in the Azerbaijani language was characterized, the role of Molla Nasreddin journal in the development of democratic educational ideas in Azerbaijan was summarized, as well as function of "Molla Nasreddin" journal in the development of school and education, its struggle with counter forces being against them in this field,

importance of folk pedagogy usage in journal, its description, formation and development were analysed from the point of view of Molla Nasreddin followers thoughts, the issues of children upbringing on national sense, the role of those educational samples were defined and analysed.

Third chapter of the thesis was devoted to the research of "Molla Nasreddin" journal and thoughts of Molla Nasreddin followers about upbringing". This chapter consists of three subchapters. In "Molla Nasreddin" journal description of social and moral dependence, call for moral - ethical maturity and humane behaviour and propaganda for moral values on Molla Nasreddin followers were grounded with fundamental arguments, attitude to nation, motherland, family and labour in the creativity of Molla Nasreddin followers and their view points about effective organizing issues of them were searched as actual questions from modern pedagogical requirements point of view.

It was stated that, Molla Nasreddin followers draw special attention of family upbringing issues in their pedagogical thoughts and ideas. They considered mutual work of family and school, meeting common requirements between them, sample of parent in child upbringing like important term and put forward valuable conceptions connected with the essence, aim, holding possibilities of growing generation upbringing as well. Molla Nasreddin followers connected labour upbringing with moral upbringing, put forward educational peculiarities of labour, started repeatedly the importance of bringing up love for labour and working man on growing generation, mastering profession.

Conclusion part of the thesis was written in scientific style as well, main results of research were generalized with nineteen items and proposals stated as result of research inform on scientific innovations as well.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**Кямал Гасан оглу Джамалов**

# МЕСТО И ЗНАЧЕНИЕ ПРОСВЕТИТЕЛЬСКОГО ДВИЖЕНИЯ ЖУРНАЛА «МОЛЛА НАСРЕДДИН» И МОЛЛАНАСРЕДДИНОВЦЕВ В ИСТОРИИ РАЗВИТИЯ АЗЕРБАЙДЖАНСКОЙ ШКОЛЫ И ПЕДАГОГИЧЕСКОЙ МЫСЛИ

**5804.01 – Общая педагогика, история педагогики и образования**

## А В Т О Р Е Ф Е Р А Т

**Диссертации на соискание ученой степени доктора наук по педагогике**

**Б А К У – 2018**